**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "Kiçik və orta biznes subyektlərinin iqtisadiyyatın inkişafında rolu, Almaniya nümunəsində"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Allahverdiyeva Fidan Adil qızı**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**Dos. Əhmədov Fariz Saleh oğlu**
**"___" __________ 2019-cu il**

**"Kiçik və orta biznes subyektlərinin iqtisadiyyatın inkişafında rolu, Almaniya nümunəsində"**
**Mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:060401-Dünya İqtisadiyyatı**
**İxtisaslaşma: Xarici İqtisadi fəaliyyət**
**Qrup: 860**

**Magistrant**
**Fidan Adil qızı**

**Elmi Rəhbər Allahverdiyeva**
**i.e.n.,dos. Quliyev Asiman Aydın**

**Proqram Rəhbəri**
**i.ü.f.d, b.m. Nəcəfova Kəmalə Akif qızı**

**Kafedra Müdiri**
**prof.Kəlbiyev Yaşar Atakişi**

**BAKI – 2019**

# THE ROLE OF SMALL AND MEDİUM-SİZED BUSİNESSES İN ECONOMİC DEVELOPMENT İS ON THE EXAMPLE OF GERMANY


## Abstract

**Relevance of the research: In contemporary competition, SMEs have an impact on the rate of economic growth, the structure and quality of the overall national product. Under these conditions, the need for state support and assistance to SMEs is crucial. The creation and development of small and medium-sized manufacturing enterprises accelerates the application of new innovative technologies in the field of economic activity, creates free competition conditions, increases the level of employment of the population.**

**The purpose of the research: To develop the role of SMEs in the market economy in Germany's economic development and the relevant recommendations and recommendations in the relevant direction. Objectives of the research are the importance of KOS in the country's economy, support for SMEs in Germany and the identification of opportunities for their implementation in Azerbaijan. Used research methods: Historical logic, statistical analysis, grouping, balance and comparative analysis, observation methods were used in research.**

**Research methods used: The research work, textbooks and some internet resources of Azerbaijani, English, German, Russian and Turkish authors were used in the research.**

**İnformation base of research: Conducting a thorough research in terms of scientific and theoretical bases.**

**Limitations of research: Limitations are not found.**

**Results of the research: The role and place of KOS in the economy of the country, support for small and medium-sized businesses in Germany, their application opportunities in Azerbaijan, forms of support for KOS in Azerbaijan and their development have been achieved.**

**Scientific and practical significance of the results: The results obtained during the research, as well as the suggestions and recommendations proposed can be used to improve the COS, to improve its financial security, and to increase the investment attractiveness of the German sample.**



**Key words: Small and Medium Enterprise, German Small and Medium Business (Mittelstand), Entrepreneurship Support.**

## İxtisarlar və İşarələr

**KOS** – kiçik və orta sahibkarlıq

**KOB** – kiçik və orta biznes

**FİTN** – Federal İqtisadiyyat və Texnologiya Nazirliyi

**FMA** – Federal Məşğulluq Agentliyi

**Aİ** – Avropa İttifaqı

**ABŞ** – Amerika Birləşmiş Ştatları

**ÜDM** – Ümumi Daxili Məhsul

**ASKOSB** – Avropa Sənətkarlar, Kiçik və Orta Sahibkarlıq Birliyi

**ƏDV** – Əlavə Dəyər Vergisi

**AİB** – Almaniya İnvestisiya Bankı

# MÜNDƏRİCAT


| |
|---|
| **GİRİŞ.........................................................................................................4** |
| **I Fəsil: Kiçik və orta sahibkarlıq fəaliyyəti və onun tənzimlənməsinin nəzəri konseptual aspektləri** |
| 1.1. Kiçik və orta sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi məzmunu...........................................................................................7 |
| 1.2. Kiçik və orta sahibkarlığın formaları və onların spesifik xüsusiyyətləri..........................................................................16 |
| **II Fəsil: Almaniyada kiçik və orta sahibkarlığın inkişafının müasir vəziyyəti və kompleks təhlili** |
| 2.1. Kiçik və orta biznesin Almaniyanın iqtisadi inkişafına təsiri..................25 |
| 2.2. Kiçik və orta biznes subyektlərinin inkişaf səviyyəsinin təhlili və qiymətləndirilməsi ......................................................................31 |
| 2.3. Almaniyada kiçik və orta biznesin inkişaf etdirilməsində əsas dövlət və maliyyə dəstəklərinin mövcud vəziyyəti.....................................................39 |
| **III Fəsil: Azərbaycanda kiçik və orta biznes subyektləri və Almaniya və Azərbaycan iqtisadiyyatının qarşılıqlı əlaqaləri** |
| 3.1. Azərbaycanda kiçik və orta biznes subyektlərinin inkişafında müasir dövrdə dövlət qayğısının əsas istiqamətlərinin təhlili..............................................50 |
| 3.2. Azərbaycan iqtisadiyyatında Alman kiçik və orta biznesindən alınacaq təcrübələrin tətbiqi məsələləri.....................................................................57 |
| 3.3 Müasir dövrdə Azərbaycanın kiçik və orta biznesində aparılan islahatların milli iqtisadiyyatın inkişafında rolunun qiymətləndirilməsi...........................64 |
| **NƏTİCƏ VƏ TƏKLİFLƏR.......................................................................70** |
| **ƏDƏBİYYAT SİYAHISI.........................................................................72** |
| Cədvəllərin siyahısı...........................................................................76 |
| Sxemlərin siyahısı.............................................................. .................76 |
| Qrafiklərin siyahısı...................................................................................77 |

# GİRİŞ

**Mövzunun aktuallığı.** Müasir rəqabət şəraitində kiçik və orta biznes iqtisadi artım tempinə, ümumi milli məhsulun strukturuna və keyfiyyətinə təsir göstərir. Bu şəraitdə kiçik və orta biznesin dövlət tərəfindən dəstəklənməsinə və ona kömək göstərilməsinə xeyli zərurət yaranır. Kiçik və orta istehsal müəssisələrinin yaradılması və inkişafı nəticəsində iqtisadi sahələr üzrə yeni innovativ texnologiyaların tətbiqi sürətlənir, azad rəqabət şəraiti yaranır, əhalinin məşğulluq səviyyəsi artır.

Kiçik və orta biznes subyektləri daxili bazarların əmtəə və xidmətlərlə zənginləşdirilməsində, bütün sahələrdə rəqabətin dərinləşməsində, mövcud əmək və material ehtiyatlarının təsərrüfat dövriyyəsinə cəlb olunmasında və əhalinin tələbatının optimal ödənilməsində mühüm rol oynayırlar. Kiçik və orta biznes subyektlərinin sayının artması ölkədə iqtisadi islahatların aparılması, istehsalın texnoloji və idarəetmə strukturunun yenidən qurulması ilə əlaqədardır.

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında kiçik və orta müəssisələr müxtəlif adlar altında fəaliyyət göstərir. Belə ki, Almaniyada kiçik müəssisələr orta müəssisələrdən fərqlənmir və müəssisələrə "orta təbəqə" kimi baxılır. Almaniyada kiçik və orta müəssisələrin tərifi belədir: "Maliyyələşdirilməsi kapital bazarından olmayan, istehalda bilavasitə iştirak edərək, sahibkarlıq riskini öz üzərinə götürüb, hüquqi şəxslər tərəfindən sərbəst idarə edilən, sənayedə, ticarətdə fəaliyyət göstərən sahibkarlıq vahididir".

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.**İqtisadiyyatın bazar iqtisadiyyatı şəraitində olması və iqtisadi amillərin iqtisadiyyatın inkişafında rolu XX əsr iqtisadçılarından bir çoxu tərəfindən səsləndirilsə də, bu sahədə ən öndə gedənləri alman iqtisadi düşüncə məktəblərinə mənsub olan A.M.Armak, V.Oyken, L.Erxard, E.Tuchtfeld və H.Giersch kimi iqtisadçılardır. Dissertasiya işində qeyd olunan alimlərlə yanaşı V.Carlin, K.John, P.Koslovski, H.O.Lenel, H.J.Rösner, R.Wrobel, K.Zveig, K.S.Lee, T.Lawson, D.Dequech, D.Colander və s. kimi tanınmış tədqiqaçıların əsərlərindən də istifadə edilmişdir. Azərbaycanda bu istiqamətdə Z.Ə.Səmədzadə, V.M.Vəliyev, N.İmanov, D.Ə.Vəliyev, Ş.M.Muradov

Ə.Q.Əlirzayev, T.Ə.Quliyev, İ.H.Alıyev, F.A.Fərəcov, T.N.Əliyev, F.Ə.Qənbərov, V.Ə.Rüstəmov, C.B.Quliyev və digər iqtisadçı alimlər tərəfindən müxtəlif səpgidə tədqiqatlar aparılmış və dəyərli elmi nəticələr əldə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.**Tədqiqat işinin əsas məqsədi kiçik və orta biznes subyektlərinin bazar iqtisadiyyatının Almaniyanın iqtisadi inkişafında rolu və müvafiq istiqamətdə əsaslandırılmış əməli təklif və tövsiyyələr hazırlamaqdan ibarətdir. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Sahibkarlıq fəaliyyətinin təşkili prinsiplərinin ümumiləşdirilməsi;
- Almaniyada kiçik və orta sahibkarlığın mahiyyəti;
- Kiçik və orta sahibkarlıq fəaliyyətində Almaniya iqtisadiyyatının təşəkkülü xüsusiyyətlərinin araşdırılması və üstünlüklərinin müəyyənləşdirilməsi;
- Almaniyada sahibkarlığın inkişaf dinamikasının təhlili və qiymətləndirilməsi;
- Bu sahədə müvafiq beynəlxalq təcrübədən istifadə imkanlarının müəyyən edilməsi;
- Müvafiq istiqamətlərdə əsaslandırılmış əməli təklif və tövsiyyələrin hazırlanması.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat obyekti olaraq Azərbaycanda fəaliyyət göstərən kiçik və orta biznes subyektləri seçilmişdir. Tədqiqat obyekti kimi həm də Almaniyanın kiçik və orta biznesi öyrənilərək Azərbaycana müasir nümunə kimi təklif və tövsiyyələrin işlənib hazırlanmasıdır. Tədqiqatın predmetini isə kiçik və orta sahibkarlıq subyektləri arasında mövcud olan iqtisadi münasibətlər sisteminin alman nümunəsi səviyyəsinə yaxınlaşdırmaq fəaliyyətinin təhlili və təkmilləşdirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın metodları.**Tədqiqat işinin nəzəri-metodoloji əsaslarının tədqiq olunan mövzuya dair mövcud elmi ədəbiyyatda əks olunmuş nəzəri baxışlar, metodoloji yanaşmalar, həmçinin, Almaniyada qəbul olunmuş sosial-iqtisadi inkişaf konsepsiyaları, müxtəlif dövlət proqramları, qanunlar, digər qanunvericilik aktları və normativ-hüquqi sənədlər təşkil edir. Tədqiqat işinin aparılmasında tarixi

məntiqi, statistik təhlil, qruplaşma, balans və müqayisəli təhlil, müşahidə metodlarından istifadə olunmuşdur.

Magistr dissertasiya işində tədqiqat modeli istifadə olunan analiz metodu, məlumatların toplanması üçün lazım olan vasitələr, istifadə olunacaq proqram təminatı (SSPS, Eviews) kimi vasitələrdən köməkçi kimi istifadə olunacaq.

**Tədqiqatın informasiya bazası**. Tədqiqat işinin yerinə yetirilməsində Azərbaycan, ingilis, alman, rus və türk müəlliflərin tədqiqat işlərindən, dərsliklərdən və bir sıra internet resurslarından, həmçinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Dövlət Statistika Komitəsinin və digər yerli və beynəlxalq qurumların mənbələrindən istifadə olunmuşdur. Bununla yanaşı, Almaniya kiçik və orta sahibkarlığının tədqiqi məqsədilə Almaniya Federal İqtisadiyyat və Sənaye Nazirliyi, Federal Məşğulluq Agentliyi, bir sıra federal və əyalət inkişaf banklarının məlumatlarından istifadə olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri.**Tədqiqat işində sahibkarlıq, onun mahiyyəti vəmüasir xüsusiyyətlərinə dair nəzəri fikirlərə istinadlar verilmişdir. Araşdırmanın əsas məhdudiyyətləri Almaniya üzrə göstəricilərin əldə edilməsi və mövcud materialların xarici dildə olmasından ibarətdir.

**Nəticələrin elmi və praktiki əhəmiyyəti.**Tədqiqat zamanı əldə edilən nəticələr, eləcə də, irəli sürülmüş təklif və tövsiyyələr kiçik və orta sahibkarlığın inkişafı, onun maliyyə təminatının təkmilləşdirilməsi, alman nümunəsi əsasında investisiya cəlb ediciliyinin yüksəldilməsi istiqamətində istifadə edilə bilər. Dissertasiya işinin ayrı-ayrı bölmələrinin nəticə və təklifləri müvafiq tədris proqramlarının hazırlanmasında və digər normativ sənədlərin hazırlanmasında istifadəedilə bilər.

Tədqiqatda əldə edilən müddəalar, irəli sürülmüş təklif və tövsiyyələr müxtəlif elmi təşkilatlarda keçirilən konfranslarda məruzə edilərək nəşr oluna bilər.

**Dissertsiya işinin strukuturu və həcmi.** Dissertasiya işi giriş, 8 paraqraf və bu paraqrafları əhatə edən 3 fəsil, nəticə və təkliflər və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumi həcmi 77 səhifədən ibarətdir.

# I Fəsil: Kiçik və orta sahibkarlıq fəaliyyəti və onun tənzimlənməsinin nəzəri konseptual aspektləri

## 1.1. Kiçik və orta sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi məzmunu

Bazar münasibətləri şəraitində iqtisadiyyatın struktur quruluşunun formalaşmasında və azad rəqabətin təmin olunmasında ən əsas problem inhisarçılığın aradan qaldırılması və dövlətsizləşdirilmənin sürətləndirilməsidir. Qeyd olunan bu problemlərin həlli üçün beynəlxalq təcrübədə əsas üsullardan biri kiçik və orta sahibkarlıq müəssisələrinin yaradılması, dəstəklənməsi və inkişafı hesab olunur. Bu müəssisələrdən hər biri istehsal vasitələrinin şəxsi sahibi olduğundan, təbiidir ki, istehsal olunan məhsullara da sərəncam vermək hüququna malikdirlər. Ölkə iqtisadiyyatının hər bir sferasında kiçik və orta səviyyəli bazar strukturlarının yaranması iqtisadi proseslərin beynəlxalq təsərrüfatçılıq praktikasında mövcud olan tendesiyalarına cavab verir. Odur ki, dünyanın bütün ölkələrində xırda biznes sferasında müxtəlif profillər üzrə çoxlu sayda kiçik və orta sahibkarlıq müəssisələri fəaliyyət göstərir.

Son dövrlər sürətlə qloballaşan dünya iqtisadiyyatında özünəməxsus yeri və əhəmiyyətli mövqeyi ilə fərqlənən Qərbin aparıcı sənaye dövlətlərinin timsalında - toplanmış zəngin təcrübənin, iqtisadi inkişafın stimulverici nəticələrinin bazar iqtisadiyyatına keçidi təmin etmiş ölkələrdə praktiki tətbiqi məsələləri aktuallığını saxlamaqdadır. Bu istiqamətdə yeni fikir və ideyaların meydana çıxması, nəzəri-metodoloji məslələrin tədqiqi əsasında sistemli yanaşmanın məhsulu ola bilər. Kiçik və orta sahibkarlığın inkişafının maliyyə təminatının nəzəri-metodoloji müstəvidə tədqiqinin elmi əhəmiyyəti və aktuallığı şübhə doğurmur.

Bazar iqtisadiyyatı, ümumiyyətlə, sahibkarlıq fəaliyyəti üzərinə qurulmuşdur. Feodalizm quruluşu dağılıb bazar iqtisadiyyatı formalaşdığı XVII əsrdən bu yana bir çox iqtisadçıların sahibkarlığın məzmunu, əhəmiyyəti və cəmiyyətin sosial-iqtisadi həyatında oynadığı rolu barədə müxtəlif fikirlər söyləmişlərdir.

XVIII əsrdə sahibkarlıq anlayışı elmə məlum olmasa da, A.Smit özünün “iqtisadi adam” anlayışını irəli sürərkən əslində dövrümüzün sahibkarlıq anlayışına izah vermişdir. O, bu konsepsiyada cəmiyyətdə hər bir şəxsin əsas məqsədinin

mənfəət əldə etmək olduğunu qeyd edirdi.  Lakin bununla yanaşı Smit mənfəət əldə etməyin yolunu cəmiyyətin ehtiyaclarını və tələbatlarını müəyyən edərək onları reallaşdırmaqdan keçdiyini irəli sürürdü. Beləliklə o, "iqtisadi adam" dedikdə, mənfəət əldə etmək məqsədilə fəaliyyət göstərən və bu zaman cəmiyyətin tələbatına xidmət edən şəxsi nəzərdə tuturdu. Mənfəət əldə etmək naminə fəliyyət göstərən hər bir şəxs qeyri-ixtiyari olaraq cəmiyyətin ümumi mənafeyinə, məsələn, əhalinin zəruri tələbatının ödənilməsinə, istehsal olunan məhsulların keyfiyyətinin və xidmətin səviyyəsinin yüksəldilməsinə xidmət göstərir.

Ümumiyyətlə sahibkarlıq anlayışı ilk dəfə ingilis iqtisadçısı Riçard Kantilyon tərəfindən XVII əsrin sonu XVIII əsrin əvvəllərində elmə gətirilmişdir. Kantilyonun fikrincə, sahibkarlıq xüsusi növ iqtisadi funksiya kimi müxtəlif növ əmtəələr bazarında tələb və təklif arasında uyğunluq yaratmağa xidmət edir. Başqa sözlə desək, Kantilyona görə, sahibkarlığın başlıca cəhəti onun riskə getməsindən, əsas iqtisadi vəzifəsi isə müxtəlif əmtəə bazarlarında təklifi tələbə uyğunlaşdırmaqdan ibarətdir (Z.H.Abdullayeva, 2015: s.8). Burada riskə getmək dedikdə, sahibkarın öz sərvətini, əmlakını və yaxud da, müəyyən faizlə borca götürülmüş kapitalını əmtəələrin istehsalına və xidmətlərin göstərilməsinə sərf etməsi nəzərdə tutulur. Təklifin tələbə uyğunlaşdırması deyərkən sahibkarın bazarda hansı məhsul təklifinin insanların bu məhsula olan tələbindən geri qaldığını müəyyənləşdirərək həmin məhsul istehsalına yönəlməsi nəzərdə tutulur. Sahibkarın bu məhsul istehsalına yönəlməsinin əsas amili bu sahədə təklifin tələbdən geri qalması ilə ortaya çıxan potensial mənfəətin əldə olunması istəyidir.

Alfred Marşalın öz tədqiqatlarında sahibkarlıq fəaliyyətindən danışarkən sahibkarlığın ən ümumi səciyyəvi xüsususiyyətinin sahibkarın öz əmlakından istifadə etməkdə, sərəncam verməkdə, istehsal və satışla bağlı qərar qəbul etməkdə azad olmasını vurğulayırdı.

Sahibkarı istehsalatda yeni texnologiya əldə edən novator kimi səciyyələndirən Şumpeterə görə, sahibkar olmaq digərlərinin edə bilmədiyini etmək, əvvəldən görə bilmək, köhnəliyə zidd çıxmaq, yenilik tapmaq və onu tətbiq etmək, qorxmadan risk etmək, qabaqcadan verilmiş proseslər əsasında deyil həmin

prosesləri özü müəyyən edərək fəaliyyət göstərmək qabiliyyətindədir. O, sahibkar dedikdə, təkcə istehsal mülkiyyətçisini deyil, həm də bank və yaxud səhmdar cəmiyyəti rəhbərlərinin də kateqoriyaya aid edildiyini nəzərdə tuturdu (Z.H.Abdullayeva, 2015: s.8).

Kiçik və orta sahibkarlığın iqtisadi inkişafda əhəmiyyətini qiymətləndirmək üçün öncə onların cəmiyyətin sosial-iqtisadi həyatında roluna diqqət yetirmək gərəkdir. Kaliforniya Universitetinin professour, iqtisadçı alim D.Reyin fikrincə kiçik və orta sahibkarlıq istehsalın effektivliyinin yüksəldilməsi və məşğulluğun artmasına, rəqabətin formalaşmasına və inkişafına yardım edir. Onun fikrincə hansı ölkədən (yüksək inkişaf etmiş sənaye dövlətində və ya zəif inkişaf etmiş ölkədə) yaranmasından asılı olmayaraq, kiçik və orta müəssisələr göstərilən funksiyanı yerinə yetirirlər. Sadəcə olaraq, ölkənin xarakterindən asılı olaraq sözügedən funksiyaların necə sıralanması məsələsi diqqət mərkəzində olur. (J.Zoltan, 1989: s. 46).

İngilis iqtisadçısı A. Gib, italiyan iqtisadçısı F.Basetti və başqa alimlərin fikrincə yalnız kiçik müəssisələrin xüsusi yer tutduğu iqtisadi sistemi ideal hesab etmək olar. Onların rəyincə real iqtisadi inkişafın əsası yalnız kiçik və orta sahibkarlığın formalaşdırılması ilə bağlıdır və onlarsız sabit irəliləyiş dinamikası təmin oluna bilməz. (В.А.Рубе, 1978: s.121).

Bütövlükdə, kiçik və orta sahibkarlığın iqtisadi sistemdə və ölkələrin iqtisadi inkişafında oynadıqları rolu aşağıdakı kimi təsnifləşdirmək olar:

a) Qərb iqtisadçıların araşdırmalarına görə, kiçik və orta sahibkarlıq subyektləri böhran illərində böhranın dəf edilməsində əhəmiyyətli rol oynayırlar və iqtisadi inkişafın yenidən canlanmasında və onun əhəmiyyəti şübhəsizdir. Qərb ölkələrinin təcrübəsi göstərir ki, iqtisadiyyatın restruktruzasiyası dövrlərində bu sektorun formalaşması və inkişafı, xüsusilə böyük əhəmiyyət kəsb etmişdir. Kiçik və orta müəssisələrin inkişafı bazar münasibətlərinin formalaşdırılmasında ciddi rol oynayır.

b) Kiçik və orta müəssisələrin iqtisadi sistemdə oynadığı rollardan biri bu kateqoriyadan müəssisələrin rəqabətin təmin edilməsində müstəsna xidmətidir. Bu

kateqoriyaların müəssisələrin inkişafı eyniadlı məhsul istehsalçılarının sayını artırmaqla təkmil rəqabəti təmin edir.

Böyük Britaniyada kiçik biznesin vəziyyətini və rolunu öyrənən Britaniya hökuməti ekspertlərinin xüsusi hesabatında deyilir ki, iri diversifikasiyaya uğramış firmaların fəaliyyət göstərdiyi iqtisadi sistemdə kiçik firmalar aktual və potensial mənada rəqabətə imkan verir və inhisar mənfəətini, habelə, iqtisadiyyatın inhisarlaşması ilə bağlı istehsalın səmərəliliyinin aşağı düşməsini müəyyən qədər məhdudlaşdırır. Bu yolla kiçik firmalar bütünlüklə iqtisadi sistemin səmərəliliyinə imkan verir(Б.Н.Ичитовкин, 1988: s.31-32).

ABŞ-da qəbul olunan kiçik biznes haqqında qanunun 2-ci maddəsində məsələyə bu şəkildə yanaşılmışdır: "Yalnız tam və təkmil rəqabət azad bazarın, bazara azad daxilolmaların ... aşkarlanmasına və inkişafına təkan verə bilər. Belə rəqabətin müdafiəsi və stimullaşdırılması təkcə ölkənin rifahının deyil, həmçinin, iqtisadi təhlükəsizliyin əsasını təşkil edir" (V.İ.Bayramov, 2002: s.16)

c) Kiçik və orta sahibkarlıq müəssisələri məşğulluq probleminin aradan qaldırılmasında və yeni iş yerləri yaradılmasının mühüm rol oynayır. Bu müəssisələrin iqtisadiyyatda oynadıqları əsas yollardan biri də onların işsizlik probleminin aradan qaldırılmasına əhəmiyyətli təsirinin olmasıdır. İnkişaf etmiş ölkələrin əksəriyyəti tam məşğulluğa kiçik və orta sahibkarlığı inkişaf etdirməklə nail olmuşdur. Statistik məlumatlar göstərir ki, bu kateqoriyalı müəssisələrin iqtisadiyyatın strukturunda üstün xüsusi çəkisi mövcud olan ölkələrdə işsizlik problemi o qədər də ciddi əhəmiyyət kəsb etmir. İşsizlik problemin aradan qaldırılmasında kiçik və orta sahibkarlığın rolunu aşağıdakı kimi qiymətləndirmək olar:

- Bu müəssisələrin iri korporasiyalara nisbətən daha tez qurulması və qısa müddət ərzində gəlir əldə etmək imkanları əhalinin müəyyən qisminin işlə təmin olunmasına şərait yaradır.

- Kiçik və orta müəssisələr böhran dövrlərində də fəaliyyət göstərə bilirlər və statistik məlumatlara görə, belə vəziyyətlərdə iri müəssisələrdən fərqli olaraq bu kateqoriya firmaların gəlirlərində və ya yeni iş yerlərin yaradılmasında azalma

müşahidə edilmir və ya iri müəssisələrdəki durğunluqla müqayisədə kiçik və orta müəssisələrin ümumi vəziyyəti yaxşı qiymətləndirilir. Müflisləşmə isə adətən bu tip müəssisələr arasında gedən rəqabətin nəticəsində baş verir.

- Bu müəssisələrdə çalışanların çoxu üçün yüksək səviyyəli tədrisə ehtiyac olmur. Əksər vətəndaşlar üçün kiçik və orta müəssisələrdə çalışmaq biznes məktəblərində oxumaq kimi xarakterizə edilə bilər.

- Bu kateqoriyalı müəssisələr müflisləşdikdə böyük işsizlər ordusu yaranmır. Əgər hər hansı iri korperasiyanın müflisləşməsi və ya işçilərinin müəyyən hissəsinin ixtisar etməsi ciddi məşğulluq problemi yaradırsa, kiçik və orta müəssisələrinin belə fəaliyyəti iqtisadiyyat üçün elə ciddi problem yaratmır.

- Hər il çoxlu sayda kiçik və orta müəssisələrin yaranması müflisləşmənin yerini bir növ örtür. Bir sıra müəssisələr sıradan çıxır, yeni müəssisələr yaranır və nəticədə işlə təmin olunmaq proporsionallığı qorunur. Buna görə də, kiçik və orta müəssisələrin məcazi mənada bir birini əvəz etmə sistemi ilə işləməsi cəmiyyətdə məşğulluq probleminin yaranmasına imkan vermir.

- Ailə təsərrüfatları da kiçik müəssisələr kimi fəaliyyət göstərirlər. Ailə təsərrüfatlarında ailə üzvlərinin demək olar hamısı çalışdığından, burada təhsil səviyyəsi və ya hansısa qabiliyyətin mövcudluğu elə də ciddi rol oynamır və ailə üzvləri müvafiq işlərlə təmin edilə bilir.

d) Yeni ixtira və kəşflərin, texnoloji yeniliklərin iqtisadiyyata tətbiqində kiçik və orta sahibkarlıq subyektlərinin rolu mübahisəsizdir. Tanınmış iqtisadçı L.Allenin fikrincə, kiçik biznes müəyyən dərəcədə ölkə iqtisadiyyatının yetişdiyi, təşəkkül tapdığı tarladır. Yeni ideyalar, ixtiralar, hər cür yeniliklər kiçik müəssisələr tərəfindən düşünülüb həyata keçirilir.

e) Kiçik və orta sahibkarlıq subyektləri istehlakçılarının sürətlə dəyişən tələbini təmin edə bilir. D.Barne kiçik və orta müəssisələrin bazara asan və real uzlaşmasını onların başlıca cəhəti hesab edərək müştərilərlə daimi və birbaşa əlaqədə olduğundan tələbatın dəyişməsindən asılı olaraq, fəaliyyətlərini yenidənqurmağı bacardıqlarını bildirmişdir.

Bazar iqtisadiyyatı şəraitində istehlakçının tələbləri elə tez-tez dəyişir ki, iri müəssisələr bu dəyişiklikləri əksər hallarda tənzimləyə bilmirlər. Məsələ ondadır ki, həmin müəssisələrin istehsal-texniki imkanlarının genişliyinə baxmayaraq, iri strukturu yeni dəyişikliklərə hər dəfə uyğunlaşdırmaq nəinki çətindir, hətta çox hallarda bu, praktiki olaraq mümkün deyil. Kiçik və orta müəssisələrdə belə problem yoxdur, onların strukturlarının və dövriyyələrinin azlığı yeni dəyişiklərə cəld uzlaşma imkanı verir. Buna görə də, istehlakçıların dəyişən tələbatının ödənilməsində kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyəti mühüm əhəmiyyət daşıyır.

f) Kiçik və orta sahibkarlıq subyektlərinin iri müəssisələrin fəaliyyətlərini tamamlamaq üstünlükləri vardır ki, bununla da kiçik və orta müəssisələr iri müəssisələrlə əməkdaşlıq etmiş olur və onların xüsusi sifarişlərini yerinə yetirilməsi sahəsində ixtisaslaşırlar. İri şirkətlərin kiçik və orta müəssisələrlə əməkdaşlıq etməsinin əsas səbəbi ikincilərin həmin işləri daha ucuz yerinə yetirməsidir.

g) Kiçik və orta sahibkarlıq subyektləri regionların inkişafını şərtləndirə bilir və artıq əksər ölkələrdə bu kateqoriya müəssisələrin köməyi ilə iqtisadi inkişafda regional fərqləri aradan qaldırmağa cəhdlər edilmişdir. Belə ki, iri müəssisələr əksər hallarda regionlarda fəaliyyət göstərməkdə maraqlı olmurlar və ya ölkənin iri şəhərlərində istehsal etdikləri malları müxtəlif bölgədə çatdırmağa çalışırlar. Regionlarda iş yerlərinin yaradılmasını və rəqabətin inkişafını təmin etmək üçün əksər dövlətlərdə kiçik və orta sahibkarlıq subyektlərinin regional inkişaf proqramları fəaliyyət göstərir.

Kiçik biznesin inkişafı özündə çoxsaylı üstünlükləri cəmləşdirir. Kiçik biznesin aşağıdakı bir sıra qarşılıqlı əlaqədə olan, onun təşkili və səmərəli idarə edilməsi cəhətlərini özündə əks etdirən üstünlüklər mövcuddur:

- Demokratik cəmiyyət və siyasi stabillik şəraitində sahibkarların sayının çoxalmasını təmin edir;
- Müxtəlif sosial qruplara aid olan əhalinin həyat tərzinin uyğunsuzluğunu tənzimləməklə insanların gəlirlərini artırır;

- Daha az maddi vəsait sərf etməklə yeni iş yerlərinin meydana gəlməsinə şərait yaradır;
- Yüksək risk və rəqabət şəraitində texniki, texnoloji, təşkilati xarakterli yeniliklərin işlənməsi və istehsalata tətbiqi həyata keçirilir;
- Rəqabət mühiti yaradır və istehsal monopoliyası ilə mübarizəyə kömək edir;
- Kiçik həcmli əhali yığımlarını, eləcə də, təkrar emal oluna bilən maddi, maliyyə və təbii ehtiyatlardan istifadəni səfərbər edir;
- İnvestisiya qoyuluşlarının ödəmə müddətini kəskin azaldır;
- Müxtəlif iqtisadi sahələr arasında qarşılıqlı əlaqələri yaxşılaşdırır (İ.İ.Məmmədova, 2002: s.11-12).

Kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadiyyatda oynadıqları rolla bağlı qeyd olunanlardan belə aydın olur ki, bu kateqoriya müəssisələrin formalaşması və inkişafı Azərbaycan iqtisadiyyatı üçün də ciddi əhəmiyyət kəsb edir. Bunun üçün ölkədə kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı ilə bağlı güclü dövlət siyasətinin həyata keçirilməsi zəruridir.

Kiçik və orta müəssisələr xüsusilə istehlak məhsullarının istehsalı ilə bağlı olan sahələrdə yaranır və fəaliyyət göstərir. İstehsalın xırda formaların səmərəli fəaliyyət göstərmək imkanları iri istehsalla müqayisədə bir sıra üstünlüklərə malikdir. Bunlar aşağıdakılardan ibarətdir:

- Yerli bazarlara məsafə baxımından yaxınlıq;
- İstehlakçıların (müştərilərin) tələbatlarına maksimum uyğunlaşma;
- İri firmalar üçün əlverişli olmayan xırda partiyalarla məhsul istehsalı;
- İdarəetmədə paralel səviyyələrin ixtisar edilməsi(V.Niftullayev, 2002: s. 110).

Araşdırmalar göstərir ki, xırda istehsal şəxsi istehlak sferasında tələbatların fərdiləşməsinə və diferensiallaşmasına imkan yaradır. Xırda və orta səviyyəli istehsalın inkişafı öz növbəsində iqtisadiyyatın sağlamlaşdırılması üçün əlverişli şərait yaradır. Belə ki, rəqabət mühitinin inkişafını, əlavə iş yerlərinin yaradılmasını, struktur dəyişikliklərinin həyata keçirilməsinin fəallaşdırılmasını, istehlak sektorunun genişləndirilməsini təmin edir.

Kiçik müəssisələrin yaradılması və inkişafı, eyni zamanda, əmtəə və xidmətlər bazarının doydurulmasına, ixrac potensialının yüksəldilməsinə, yerli xammal ehtiyatlarından səmərəli istifadə edilməsinə aparan əsas yol hesab edilir.

İqtisadi ədəbiyyatlarda sahibkarlıq fəaliyyətinin aşağıdaki xarakterik xüsusiyyətləri izah olunur:

- Təsərrüfat subyektinin azadlığı və müstəqilliyi: hər hansı sahibkar bu ə ya digər məslələrlə bağlı qərarların qəbul edilməsində hüquqi normalar çərçivəsində müstəqilliyə malikdir;
- İqtisadi mənafe, maddi maraq: sahibkarlıq fəaliyyətində başlıca məqsəd maksimum mənfəət əldə edilməsidir;
- Təsərrüfat riski və məsuliyyət: sahibkar riski diqqətə alaraq və düzgün hesablamalar apararaq sahibkarlıq fəaliyyətinə başlayır, bunun məsuliyyətini daşıyır.

Digər qrup iqtisadçılar isə sahibkarın xarakterik xüsusiyyətlərinə aşağıdakıları aid edirlər:

- İşin faydalılığı və perspektivliliyini qiymətləndirmək;
- Müəyyən riskə getməyə hazır olmaq;
- Bazarın tələbatına tez reaksiya vermək, yeni əmtəə istehsalına və xidmət göstərilməsinə hazır olmaq;
- İnvestorları və əlavə maliyyələşdirmə mənbələrini tapmağı bacarmaq;
- Son nəticəyə yönəlmiş fəaliyyət göstərmək;
- Rəqibləri arasında həmişə ən yaxşı olmağa cəhd etmək(Z.H.Abdullayeva, 2015: s.10).

Sahibkarlıq fəaliyyətinin təşkili zamanı sahibkarlar bir sıra funksiyaları həyata keçirirlər:

- İşgüzar fəaliyyət üçün zəruri olan resursların birləşdirilməsi (əmək resusrları, torpaq resusrları, kapial-investisiya resursları, sahibkarlıq qabiliyyəti);
- İşgüzar fəaliyyətin əsas mərhələləri üzrə qərarların qəbul edilməsi (müstəqil və kollektiv qərarlar);
- İnnovasiya fəaliyyyəti (yeni ideyalar, təşəbbüskarlıq);

- Sahibkarlıq riski (sığortalana bilən və sığortalana bilməyən)(Z.H.Abdullayeva, 2015: s.12).

Dünya təcrübəsi göstərir ki, kiçik müəssisələr iqtisadiyyatda çox mühüm rol oynayır. Son bir neçə onillikdə Qərbi Avropa, ABŞ və Yaponiyada kiçik biznes çox böyük vüsət almış çoxsaylı kiçik və orta müəssisələr toplusu yaranmışdır. Kiçik müəssisələr, yeni iş yerlərinin artırılmasını təmin edir. Bu isə ölkədə işsizliyin arzu olunan həddə qədər aşağı çəkilməsinə imkan verir.

Kiçik müəssisələr təkcə istehlak sferasında deyil, həm də iri müəssisələr üçün əlverişli olmayan məhsul buraxılışında da səmərəlidir. Bundan əlavə, kiçik müəssisələrin səmərəliliyi, son məhsulun istehsalı üçün zəruri olan yarımfabrikatların buraxılışında da özünü göstərir. Xırda və orta müəssisələrin fəaliyyətinə əsaslanan kiçik sahibkarlığın çox böyük ehtiyat mənbələri mövcuddur. Məsələn, ABŞ da kiçik və orta müəssisələr ümumi daxili məhsulun 40%-ni, xüsusi sektorlarda isə ÜDM-in yarıya qədərini istehsal edir. Kiçik və orta firmalar emal sənayesinin 21, tikintinin 80, topdansatış ticarətinin 86, xidmət sferasının 80 faizində fəaliyyət göstərir.

Son illərdə Avropa ölkələrində kapitalın təmərküzləşməsi mərkəzləşməsi sürətlənmişdir. Məsələn, Belçikada ağır sənaye istehsalı, İspaniyadan neft konsernləri, Danimarka və Hollandiyada aqrar sənaye kompleksi, İsveçdə əczaçılıq və ağac emalı, İsveçrədə saat sənayesi çox güclü inkişaf etmişdir. Bu ölkələrdə kapitalın təmərküzləşməsi mərkəzləşməsi üçün ən mühüm cəhəti ondadır ki, istehsalın iri müəssisələrdə mərkəzləşməsinə baxmayaraq o, kiçik və orta firmaların dağılmasına gətirib çıxarmadı. Bu isə onların təkrar istehsal qabiliyyətinin bir daha aşkara çıxartdı və iri konsernlər tərəfindən onlara olan maraqları artırdı. Qərbi Avropa ölkələrində emal sənayesi məhsullarının yarıya qədərini kiçik və orta müəssisənin istehsal edirlər. Bu isə iqtisadiyyatda inhisarçılığın yaranmasının qarşısını alır və onların özlərinin bütün qüvvəsini daxili istehsalının artmasına, daxili bazarın qorunmasına yönəldirlər. Rəqabət nəticəsində dağılmış və müflisləşmiş kiçik müəssisələr öz yerlərini daha yenilərinə

verirlər. Mən bütün bunlara görə də böhran illərində iri firmalar böyük çətinliklərlə üzləşsələr də, belə xırda bizneslə məşğul olanların sayı azalmır.

Kiçik müəssisələrin inkişafı, xalq təsərrüfatının inhisarsızlaşdırılmasının ən mühüm elementi hesab edilir. Bu, bir neçə istiqamətdə həyata keçirilir:

- Müstəqil istehsalat təsərrüfat fəaliyyətinə malik blokların ayrılması;
- İri müəssisələrin tərkibində kiçik və orta həcmli müəssisələrin kollektivlərinin ayrılması;
- İri müəssisələrin təşəbbüsü ilə kiçik və qız müəssisələrin yaradılması.

Kiçik müəssisələr dövlət, ictimai, kooperativ müəssisələrlə, xüsusi şəxslərlə, həmçinin, mülkiyyətin digər formalarına əsaslanan təşkilatlarla birgə təsis edilə bilər. İnkişaf etmiş ölkələrin iqtisadi praktikası göstərir ki, sahibkarlığın hər hansı formasının inkişafı əsas etibarilə iki şərtdən: bütünlüklə ölkədəki və onun regionlarındakı daxili iqtisadi şəraitdən və konkret sahibkarın təsərrüfat məqsədlərini reallaşdırmaq üçün öz hüquqlarından istifadə etməsi imkanlarından asılıdır.

## 1.2. Kiçik və orta sahibkarlığın formaları və onların spesifik xüsusiyyətləri

**Cədvəl 1. Sahibkarlıq subyektlərinin həcminə görə təsnifatı**

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyası | İşçilərinin orta siyahı sayı | İllik gəliri |
|---|---|---|
| Kiçik sahibkar | 25 nəfərədək | 200 min manatadək |
| Orta sahibkar | 25 nəfərdən 125 nəfərədək | 1.200 min manatdan 1.250 manatadək |
| İri sahibkar | 125 nəfər və ondan yuxarı | 1.250 min manat və ondan yuxarı |

**Mənbə:** İqtisadiyyat Nazirliyinin rəsmi internet saytı (https://www.economy.gov.az/article/kichik-sahibkarlig-meyar/21404, 2012).

Hal-hazırda qüvvədə olan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 iyun 2015-ci il tarixli 215 nömrəli Qərarı ilə təsdiq olunmuş “İri, orta və kiçik sahibkar meyarları”na əsasən işçilərin orta siyahı sayı 25 nəfərədək, illik gəliri 200 min manatadək olan sahibkarlar kiçik, işçilərin orta siyahı sayı 25 nəfərdən 125 nəfərədək, illik gəliri 200 min manatdan 1.250 min manatadək olan sahibkarlar

orta və işçilərin orta siyahı sayı 125 nəfər və ondan yuxarı, illik gəliri 1.250 min manatdan və ondan yuxarı olan sahibkarlar iri sahibkar müəyyən olunmuşdur. Sahibkarların bu meyarlar üzrə müəyyənləşdirilməsi üçün "işçilərin orta siyahı sayı" və "illik gəlir" göstəricilərindən daha yüksək olanı əsas götürülür.

Müxtəlif ədəbiyyatlarda həm elmi-nəzəri, həm də praktik baxımdan sahibkarlıq fəaliyyəti müxtəlif əlamətlərinə görə təsnifləşdirilir. Bu əlamətlərdən konkret olaraq bir neçəsi üzərində dayanaq:

- Fəaliyyət növünə görə (iqtisadiyyatda hansı sahələr üzrə fəaliyyət göstərir);
- Mülkiyyət formasına görə;
- Mülkiyyətçilərin sayına görə;
- Təşkilati hüquqi və təşkilati iqtisadi formalarına görə;
- Muzdlu əməkdən (işçi qüvvəsindən) istifadə dərəcəsinə görə və s. (V.Niftullayev, 2002: s.22).

Növünə və ya təyinat istiqamətlərinə görə, sahibkarlıq fəaliyyəti istehsal, kommersiya, maliyyə, məsləhət və sair sahələr üzrə fərqləndirilir.

Mülkiyyətin formasına görə müəssisənin əmlakı xüsusi, dövlət, bələdiyyə və həmçinin, ictimai birliklərin mülkiyyətində ola bilər. Bu baxımdan dövlət mülkiyyət hüququnun reallaşdırılması ilə bağlı müəssisənin əmlakını, bu və ya digər mülkiyyət formasında olmasına heç bir məhdudiyyət qoya bilməz.

Mülkiyyətçilərin sayına görə, sahibkarlıq fəaliyyəti, fərdi və kollektiv xarakter daşıya bilər. Fərdi sahibkardan mülkiyyət yalnız bir fiziki şəxsə məxsus olur. Kollektiv sahibkarlarda isə mülkiyyəti, eyni zamanda bir neçə subyektə məxsus olur. Əmlaka sahiblik, istifadə və sərəncam vermək hüququ yalnız kollektivin üzvlərinin və bütün mülkiyyətçilərin razılığı ilə həyata keçirilə bilər.

Təşkilati hüquqi və təşkilati iqtisadi formalarına görə də sahibkarlıq fəaliyyəti fərqləndirilir. Sahibkarlığın təşkilati-hüquqi formalarına şərikli olanları, cəmiyyət və kooperativləri aid etmək olar.

Şərikli birliklər sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün yaradılmış şəxslərin birliyini özündə əks etdirir. Şərikli birliklər o halda yaradılır ki, müəssisə təşkil edilərkən iki və daha çox partnyorun (ortağın) iştirakı qəbul edilsin. Şərikli

biliklərin əsas üstünlüyü ondan ibarətdir ki, bu zaman əlavə kapitalın cəlb edilməsi mümkün olur.

Sahibkarlıq fəaliyyətinin növlərini üumi şəkildə aşağıdakı sxemdəki kimi təsnifləşdirə bilərik:

**Sxem 1. Sahibkarlıq fəaliyyətinin növləri**




**Mənbə**:V.Niftullayev, 2002: s.34.

Sahibkarlıq fəaliyyətinin növləri bir-biri ilə qarşılıqlı əlaqədə olub, bir-birini tamamlayır. Sahibkarlıq fəaliyyət növləri içərisində istehsal sahibkarlığı ən prioritet sahələrdən olub, daha çox mürəkkəbliyi ilə xarakterizə olunur. Sxemdən də göründüyü kimi istehsal sahibkarlığına innovasiya, elmi texniki fəaliyyət, əmtəə və xidmətlər istehsalı, istehlak məhsulları istehsalı, həmçinin, informasiya fəaliyyəti aiddir. İstehsal fəaliyyəti ilə məşğul olan hər hansı sahələr hər şeydən əvvəl konkret olaraq hansı məhsulu istehsal edəcəyini, hansı xidmətlər göstərəcəyini əvvəlcədən planlaşdırır. Sahibkar sonra marketinq fəaliyyəti ilə

məşğul olur. Əmtəə və xidmətlərə olan tələbatı və ehtiyatları öyrənmək məqsədi ilə sahibkar potensial istehsalçılarla əmtəənin alıcıları, topdansatış və pərakəndə ticarət təşkilatları ilə əlaqə yaradır. Danışıqların yekunu sahibkar və əmtəənin gələcək alıcıları arasında bağlanacaq müqavilələrə xidmət edir. Bu cür kontraktlar sahibkarlıq fəaliyyəti ilə bağlı yaranacaq risklərin minimuma endirilməsinə imkan verir. Bazar münasibətlərinin inkişaf etdiyi Qərb ölkələrində şifahi danışıqlar kontraktların bağlanması üçün zəruri olub, onun reallaşması üçün etibarlı təminat formalaşdırır. Bazar münasibətlərinin o qədər də inkişaf etmədiyi Şərqi Avropa və keçmiş ittifaq respublikalarında isə şifahi danışıqlar o qədər də etibarlı deyildir. Sahibkarlıq riski həmin ölkələrdə əhəmiyyətli dərəcədə böyükdür.

Vençur biznesi innovasiya sahibkarlığını xarakterizə edir. Son illər vençur biznesi geniş inkişaf etmişdir. Vençur biznesi iqtisadiyyatda ən çox risk tələb edən biznes fəaliyyət növüdür. Onun ən geniş yayılmış formalarından biri, mütərəqqi texnologiyaların tətbiqidir. Vençur biznesi daha çox elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması ilə xarakterizə olunur. Səmərəliliyinin alınmasına təminat verildiyindən burada riskin səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlir. Bu formanın mahiyyəti adətən elmi-texniki kommersiya firmalarının yaradılması ilə bağlıdır.

Kiçik müəssisələr innovasiya sahibkarlığının inkişafında mühüm rol oynayır. Vençur biznesi ilk növbədə yüksək çevikliyi və dinamizmi ilə fərqlənir. Vençur sahibkarlığı riskin bölüşdürülməsi prinsiplərinə əsaslandığından elmi ideyanın müəllifləri kifayət qədər xüsusi vəsaitə malik olmadan belə onu reallaşdırırlar.

Kommersiya sahibkarlığının ən geniş yayılmış formaları kimi əmtəə birjaları və ticarət təşkilatları fərqləndirilir. Birjanın vəzifəsi ticarət sazişləri bağlamaq istəyənləri yerlə təmin etməkdir. Ticarət birjanın ticarət zalında aparılır. Bu zal bir neçə seksiyadan ibarətdir. Bu zaman qiymətqoymada müəyyən qaydaya əməl olunur. Məsələn, mal alarkən təklif edilmiş qiymətdən aşağı, satanda isə ondan yuxarı qiymət demək olmaz. Mühüm aparıcı şəxs brokerdir. O, xaricdən mal gətirmək və xaricə mal aparmaq üçün dövlətin icazəsini (lisenziyasını) almalı, həmçinin, həm öz şəxsi marağı həm də sifarişçinin marağı üçün ticarət etməlidir.

Əmtəə birjası topdansatış əmtəə bazarında alıcıların əvvəlcədən əmtəə partiyaları ilə tanış olmadan sövdələşdikləri növ müxtəlifliyidir. Əmtəə birjasında kommersiya vasitəçiləri və onların ticarət əməliyyatlarını həyata keçirmək üçün istifadə etdikləri nümayəndələr könüllü olaraq birləşirlər. Bu cür birjaların vəzifəsi azad rəqabətin idarə edilməsi mexanizmini yaratmaqdan və onun köməyi ilə tələb və təklifin dəyişməsi nəzərə alınmaqla real bazar qiymətlərini müəyyən etməkdən ibarətdir. Xüsusi əmtəə birjalarına misal olaraq London (əlvan metal), Liverpul (pambıq), Sinqapur (kauçuk) və s. birjaları göstərmək olar.

Faktiki malgöndərənlərlə birbaşa ticarət əlaqələrinin həyata keçirilməsi ilə yanaşı, əmtəə birjalarında fyuçers əməliyyatları üzrə müqavilələrin bağlanması geniş yayılmışdır. Bu cür əməliyyatlarda müqavilələr bağlandıqdan sonra müəyyən müddət ərzində müqavilədə nəzərdə tutulmuş əmtəənin qiymətinə uyğun olaraq pul məbləği ödənilir. Əmtəə birjaları aşağıdakı əsas funksiyaları yerinə yetirir:

- Ticarət sazişlərin bağlanmasına görə vasitəçilik xidmətlərinin göstərilməsi;
- Ticarət mübahisələrinin həll edilməsi və ticarət əməliyyatlarının tənzimlənməsi;
- İstehsalın vəziyyəti qiymət və digər faktorlar haqqında məlumat vermək(J.Zoltan, B.Carlsson, C.Karlsson, 2002: s. 109).

Əmtəə birjalarında dövriyyənin çox hissəsi faktiki mövcud olan əmtəələrlə və gələcək əmtəələrin daşıma müqavilələri ilə həyata keçirilir. əmtəə birjaları, qapalı və açıq formada fəaliyyət göstərirlər. Qapalı birjalarda aparılan ticarət sövdələşmələrində ancaq burokerlər, alıcı və satıcı arasında vasitəçilik edən birja vasitəçiləri, açıq birjalardakı ticarət sövdələşmələrində isə müştərilər iştirak edir. Birja əməliyyatlarının xarakterinə görə əmtəə birjaları real əmtəə birjalarında və fyuçers birjalarına bölünür. Fyuçers birjalarında yalnız fyuçers əməliyyatları həyata keçirilir.

Maliyyə sahibkarlığı fəaliyyətinin əsas hissələrini kommersiya bankları fond birjaları təşkil edir.

Kommersiya bankları səhmdar tipli maliyyə-kredit idarəsi olub kommersiya təşkilatlarını haqqı ödənilməklə kreditləşdirir, pulu əmanətlərinin (depozit)

qəbulunu həyata keçirir və müştərilərin tapşırığı ilə digər maliyyə əməliyyatları aparırlar. Kommersiya banklarının gəlirlərinin əsas mənbəyi depozitlərin faiz dərəcələri, cəlb edilmiş vəsaitləri ilə ssuda vəsaitləri arasındakı fərqdən ibarətdir.

Kommersiya banklarının əməliyyatları əsas etibarilə 3 qrupa ayrılır: passiv (vəsaitlərin cəlb edilməsi), aktiv (vəsaitlərin yerləşdirilməsi), komissiyon vasitəçilik (müştərilərin tapşırığı ilə müxtəlif maliyyə əməliyyatlarının həyata keçirilməsi). Bu banklar kommersiya xarakteri daşıyaraq kreditorlara pulları müəyyən müddətə və müəyyən faiz dərəcələri ilə verirlər. Kommersiya banklarının verdikləri kreditlər bu və ya digər səbəbdən vaxtında qaytarılmaması ehtimalına görə bank müəyyən ehtiyatlara malik olmalıdır.

İstər Respublikamızda və istərsə digər keçmiş ittifaq respublikalarında kommersiya banklarını xarakterizə edən başlıca cəhət hazırda onların əksəriyyətinin böyük həcmdə uzunmüddətli kreditlər vermək imkanının olmamasıdır. Çünki böyük həcmdə vəsait əksər kommersiya bankları da yoxdur. Ona görə də təsadüfi deyildir ki, kommersiya banklarının verdikləri uzunmüddətli kreditlər onların bütün aktivlərinin yalnız 3 faizini təşkil edir. İqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdə kommersiya banklarının gəlirlərinin başlıca mənbəyini uzunmüddətli kreditlər təşkil edir.

Bazar münasibətlərinin daha bir strukturu və maliyyə sahibkarlığın ən mühüm elementlərindən biri fond birjalarıdır. Fond birjaları dedikdə, təşkilati cəhətdən qeydiyyatdan keçmiş, müntəzəm olaraq fəaliyyət göstərən qiymətli kağızlar bazarı nəzərdə tutulur. Bunlar da ilk növbədə kapitalın mobilliyinin yüksəldilməsinə və aktivlərin real dəyərinin müəyyənləşdirilməsinə xidmət edir. Fond birjalarının formalaşma prinsipi tələb və təkliflərin operativ tənzimlənməsinə əsaslanır.

Konsultativ sahibkarlıq. “Konsultant” sözünün latın dilində hərfi mənası məsləhətçi deməkdir. İqtisadi və siyasi leksikonda mahiyyət etibarilə bu kateqoriya mütəxəssislərin müəyyən sahədə öz ixtisasına uyğun məsələlər üzrə məsləhətlər verməsidir. Xarici ölkələrin praktikasında haqqı ödənilməklə verilən məsləhətlər idarəetmənin müəyyən sahəsi olub, konsaltinq adını daşıyır. İqtisadiyyat və idarəetmə üzrə konsaltinqin Avropa Federativ Assosiasiyasının tədqiqatında

göstərilir ki, menecment konsaltinq idarəetməsinin müəyyən məsələləri üzrə məsləhətlər verirən və konkret köməkliklər göstərən mütəxəssis hesab edilir.

Sənayecə inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində konsultativ xidmətlər formasında intellektual kapitalın cəlb edilməsi, yeni avadanlıq və intensiv texnologiyanın cəlb edilməsindən daha səmərəli hesab edilir. Lakin müasir şəraitdə ölkədə konsultanta da bu cür müsbət münasibət müşahidə edilmir. Bu sahədə paradoksal mənzərə müşahidə edilir. Belə ki, müəssisələrin əksəriyyəti təşkilati idarəetmə xarakterli səbəbdən ağır iqtisadi vəziyyətdə olduğundan bazar münasibətləri şəraitinə uyğunlaşa bilmir və ona görə də bu sahədə mövcud intellektual potensialdan istifadə edə bilmirlər. Rəhbərlik də öz növbəsində konsultantın köməyinə müraciət edir, onların maliyyə təsərrüfat təhlilinin, sağlamlaşdırma proqramının, investisiya layihələrinin hazırlanması, aktiv marketinq və maliyyə siyasətinin iqtisadi səmərəsini hiss edirlər.

Konsultativ xidmətlər birdəfəlik şifahi məsləhətlər formasında həyata keçirilir. Lakin onlar konsultativ layihələr formasında da verilə bilər. Konsultativ layihələr aşağıdakı mərhələlər əsasında həyata keçirilir:

- problemin araşdırması və ya diaqnostika;
- qərar layihəsinin hazırlanması;
- qərar layihəsinin həyata keçirilməsi.

Axırıncı mərhələ layihənin həcmindən asılı olaraq bir neçə gündən bir neçə ayadək həyata keçirilir. Müştərilərlə əlaqələr çoxillik xarakterli də ola bilər.

İqtisadiyyata praktikada konsultativ xidmətlərin müxtəlif metodları mövcuddur. Lakin konsultativ xidmətin ən çox üç növü tətbiq edilir. Bunlara ekspert, proses və təlimatlar aiddir.

Ekspert konsultativ xidmətlər konsaltinqin ən passiv formasıdır. Bu zaman konsultant (məsləhətçi) diaqnostika, qərar layihəsinin hazırlanması və onun tətbiqinə dair məsləhətlərin verilməsini müstəqil şəkildə həyata keçirir. Bu şəraitdə müştəri konsultantı yalnız zəruri informasiyalarla təmin edir.

Prosessual konsultativ xidmətlər zamanı konsaltinq firmasının mütəxəssisi layihələrin hazırlanmasının bütün mərhələlərində müştərilərlə fəal qarşılıqlı

əlaqədə olur, öz ideya və təkliflərinə qarşı tərəflərin münasibətlərini öyrənir. Konsultant müştəri ilə birgə problemin mövcud vəziyyətini araşdırır, təhlil edir və son nəticədə təkliflərini hazırlayır.

Təlim xarakterli konsultativ xidmətlər zamanı mütəxəssislərin başlıca vəzifəsi qərarların hazırlanması və ideyaların yaradılması üçün münbit şərait yetişdirməkdən ibarətdir. Bu məqsədlə mütəxəssislər müştərilərə mühazirələr oxuyur, seminarlar aparır, müştərilər üçün tədris vəsaiti hazırlayır, onlar üçün zəruri olan nəzəri və praktiki informasiyaları təmin edir.

İnnovasiya sahibkarlığı. İnnovasiya sahibkarlığı müstəqil sahibkarlıq forması olmayıb, xüsusən müasir dövrdə müəyyən meyarlar baxımından fərqlənən xüsusi, kollektiv, dövlət, kiçik, orta, iri və s. sahibkarlıq formaları üçün xasdır. Məsələ burasındadır ki, iqtisadi fəaliyyətini innovasiya əsasları üzərində qura bilməyən heç bir təsərrüfat forması nəinki uzunmüddətli iqtisadi artıma nail ola bilməz, hətta qısa bir müddət ərzində öz rəqibləri tərəfindən sıxışdıraraq iqtisadi müstəvidən uzaqlaşdırıla bilər.

Fəaliyyət növlərindən müəssisələrin bazara çıxması imkanlarından və hərəkət strategiyasından asılı olaraq bir sıra ədəbiyyatlarda kiçik müəssisələrin aşağıdakı növləri fərqləndirilir:

- Kommutant tipli kiçik müəssisələr
- Patient tipli kiçik müəssisələr
- Eksplerent tipli kiçik müəssisələr

Kommutant tipli kiçik müəssisələr. Bu qrupdan olan kiçik müəssisələr bir qayda olaraq, son məhsulun ayrı ayrı detallarının hazırlanması üzrə ixtisaslaşıb, aralıq məhsul istehsalı həyata keçirirlər. Bu cür kiçik müəssisələr iri müəssisələrlə kooperasiya və subpodrat sistemi vasitəsi ilə sıx qarşılıqlı əlaqəyə malik olurlar. Kommutant tipli kiçik müəssisələrin köməyi ilə iri partiyalarla məhsul buraxan böyük müəssisələr, səmərəsiz və köməkçi istehsaldan demək olar ki, azad olaraq maksimum dərəcə sərbəstləşirlər. Bu zaman bu qrupdan olan kiçik müəssisələr iri müəssisələrin kəskin şəkildə asılı olur. Bütün bunlar isə onlar arasında kəskin rəqabət mübarizəsinə gətirib çıxarır.

Patient tipli kiçik müəssisələr. Bu qrupdan olan kiçik müəssisələr yerli xammal və material mənbələrinə əsaslanmaqla və məhdud tələb baxımından lokal satış bazarlarına xidmət etməklə son məhsulların buraxılışı üzrə ixtisaslaşırlar. Bu cür kiçik müəssisələr, adətən, ərzaq, geyim və ayaqqabı məhsulları istehsal edir və xırda tikinti işləri yerinə yetirirlər. Onlar iri müəssisələrin heç bir dərəcədə asılı olmur və əksinə keyfiyyətli məhsul istehsalı baxımından kəskin rəqabət aparırlar.

Eksplerent tipli kiçik müəssisələr. Bu qrupdan olan məsələləri bir çox hallarda riskli firmalar və ya innovasiya müəssisələri də adlandırırlar. Bu cür müəssisələr əsas etibarilə elmi və konstruktor xidmətləri həyata keçirirlər.

## II Fəsil: Almaniyada kiçik və orta sahibkarlığın inkişafının müasir vəziyyəti və kompleks təhlili

### 2.1. Kiçik və orta biznesin Almaniyanın iqtisadi inkişafına təsiri

Avropa ölkələrində kiçik və orta sahibkarlıq (KOS) müəssisələrini Avropa Komissyasının müəyyən etdiyi formada 3 səviyyəyə ayırırlar. Bunlar mikro, kiçik və orta səviyyələrdir.

Mikro səviyyəyə işçilərinin sayı 10-dan az olan, illik gəliri və ya dövriyyəsi 2 milyon avrodan aşağı olan müəssisələr aid edilir.

Kiçik səviyyəyəişçilərinin sayı 10-dan 50-yə qədər olan, illik gəliri və ya dövriyyəsi isə 2-10 milyon avro olan müəssisələr aid edilir.

Orta səviyyəyəişçilərinin sayı 50-dən 250-yə qədər olan, illik gəliri və ya dövriyyəsi isə 10-50 milyon avro olan müəssisələr aid edilir.

Avropa İttifaqında kiçik və orta sahibkarlıq müəssisələri iqtisadiyyatın əsasını təşkil edir. Avropa İttifaqındakı bütün müəssisələrin 99,8%-i KOS-lardır. Bu KOS-lar yaradılan əlavə dəyərin 57,6%-ni, məşğulluğun isə 66,5%-ni təmin edir. 2002-2010-ci illərdə Avropa Birliyində yaradılan yeni iş yerlərinin 85%-i KOS-lar tərəfindən təmin edilmişdir. Bu göstərici KOS-ların iqtisadi böhran dövründə belə işsizliyin əhəmiyyətli dərəcədə azalmasına öz müsbət təsirini göstərməsinin sübutudur (http://esnaf.gtb.gov.tr/data/54ace8d9f293705988210506/ckt.pdf, 2014).

Avropa İttifaqındakı müəssisələrin 99,8%-i Avropa Komissiyasının KOS tərifinə uyğun gəlməsi ilə birlikdə, bütün müəssisələrin təxminən 50%-i bir nəfərlik müəssisələrdir. Bu bir nəfərlik müəssisələrə həkim, vəkil, memar kimi sərbəst ixtisasa malik şəxslərin yaratdığı müəssisələr daxildir.

Avropa İttifaqının KOS siyasəti

Avropa İttifaqına görə KOS-lar birlik iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin və dinamizminin təmin edilməsində əsas rol oynayır. Avropa İttifaqında KOS-ların ümumi sayına, yaratdıqları əlavə dəyər və iş yerləri diqqətə alındıqda bu cür müəssisələrə istiqamətlənmiş İttifaq səviyyəsində siyasətin inkişaf etdirilməsi mühüm önəm kəsb edir. Həmçinin, “Avropa 2020 Strateji Planı”nda KOS-lar xüsusi yer tutmaqdadır. Bu mənada Avropa İttifaqı

KOS-ların böyümə potensialını hərəkətə keçirmək, sahibkarlığın inkişafına kömək etmək, kiçik müəssisələr üçün əlverişli sahibkarlıq mühiti yaratmaq və KOS-ların rəqabətqabiliyyətliliyini artırmaq istiqamətində fəaliyyətlərini davam etdirməkdədir. Bu istiqamətdəki ən mühüm addım "Avropa İttifaqı Kiçik Müəssisələr Qanunu"nun (Small Business Act for Europe) qəbul edilməsidir. Bu qanun aşağıdakı müəyyənləşdirilmiş xüsusiyyətləri əhatə edir(Hamid Etemad, 2004: s.72):

- Hər cür qayda "əvvəlcə kiçik olanı düşünmə" (think small first) prinsipinə görə inkişaf etdirilməlidir. Bu prinisipə əsasən istər Avropa İttifaqı, istərsə də, beynəlxalq çərçivədəki hər cür qanun və qanunvericilik tənzimlənməsi həyata keçilərkən bunların kiçik müəssisələr üzərindəki təsiri qiymətləndirilməlidir. Qanunvericiliyə olan dəyişikliklərin kiçik və orta müəssisələr üzərindəki təsirlərinin analiz edilməsi "KOS testi" kimi adlnadırılmaqdadır. Test nəticəsində tənzmiləmələrin KOS-lar üzərindəki mənfi təsirləri müəyyən edilirsə, bu təsirlərin aradan qaldırılması tədbirləri işlənib hazırlanmalıdır.
- Avropa İttifaqı və üzv ölkələr kiçik və orta müəssisələrin inkişaf etdirilə biləcəyi və sahibkarlığın mükafatlandırıldığı bir iş mühiti yaratmalıdırlar. Bu istiqamətdə Avropada sahibkarlıq stimullaşdırılmalı və şəxsləri öz işlərini qurmağa həvəsləndirməlidir.
- Müxtəlif səbəblərlə müvəffəqiyyətsizliyə düçar olmuş (iflas etmiş) sahibkarlara ikinci bir şans verilməsi təmin olunmalıdır. Avropa İttifaqında müəssisələrin bağlanmasının 15%-i iflasa uğramaq nəticəsində meydana gəlir. Aparılan araşdırmalara görə Avropa İttifaqı vətəndaşlarının 47%-i daha əvvəl iflas etmiş şəxslər tərəfindən qurulan müəssisələrlə əməkdaşlıq etmək istəmirlər. Üzv ölkələr bütün bu iflasların nəticəsində meydana gələn mənfiliklərin qarşısını almaq istiqamətində siyasətini genişləndirməlidir.
- Avropa İttifaqının üzv ölkələri dövlət idarəçiliyini KOS-ların fəaliyyətinin asanlaşdıracaq, onların ehtiyaclarına qısa müddətdə cavab verəcək formada formalaşdırmalıdır. Dövlət idarələri tərəfindən hazırlanmış proqramlar KOS-lara

vaxta və xərclərə qənaət etməyə şərait yaratmalıdır. Bu konteksdə e-hökumət və tək pəncərə xidmətləri bəhs edilən məqsədə əhəmiyyətli dərəcədə xidmət edir.

- Dövlət siyasəti alətləri KOS-ların ehtiyaclarına uyğunlaşdırılaraq dövlət yardımlarından kiçik və orta sahibkarlıq müəssisələrinin daha çox pay almasının yollarını araşdırmalıdır.

- KOS-lar üçün maliyyələşdirmə imkanı asanlaşdırılmalıdır. Banklar risk ehtimalını nəzərə alaraq yeni fəaliyyətə başlamış və inkişaf mərhələsində olan KOS-lara maliyyə dəstəyi təmin etməkdə maraqlı deyildirlər. Buna görə də, KOS-ların vençur kapitalı, mikrokreditlər və borc ilə təsisçi kapitalının qarışığı olan hibrid maliyyələşmə üsullarından istifadə etmək imkanları artırılmalıdır.

- Avropanın bazarı 500 milyon istehlakçıdan ibarətdir. KOS-ların bu bazardan daha çox faydalanması üçün şərait yaradılmalıdır. Bu istiqamətdə müəssisələrin bu bazardakı tələbin vaxtında və düzgün məlumat əldə etmələrinə şərait yaradılmalıdır. KOS-ların informasiya mənbələrinə çıxışlarını asanlaşdırmaq üçün "Avropa Sahibkarlıq Şəbəkəsi" (Enterprise Europe Network) yaradılmışdır. Bu sistemi üzv ölkələrdə fəaliyyət göstərən KOS-lara bazarın imkanlarını, qanunvericiliyi və digər ölkələrdəki uyğun şəriklərin tapılmasında və layihələrə qoşulması üçün praktik informasiyalar təmin edir.

- KOS-ların tədqiqat və inkişaf potensiallarının inkişaf etdirilməsinə istiqamətlənmiş tədbirlər görülməlidir. KOS-lar tədqiqat və inkişaf layihələrinə qoşulma istiqamətində stimullaşdırılmalıdırlar. Bundan başqa, KOS-ların kadr ehtiyaclarına uyğun işçi qüvvəsi hazırlanmalı və peşə məktəblərinin tədris planı buna uyğun inkişaf etdirilməlidir.

- Davamlı inkişaf anlayışının önəm qazandığı bir dövrdə ətraf mühitin qorunmasına həssas olan KOS-lar üçün Avropa İttifaqına üzv ölkələrdə bu imkanları fürsətə çevirməyə şərait yaradılmalıdır. KOS-ların "Yaşıl Biznes"dən istifadə edə bilməsi üçün maliyyə dəstəyi, informasiya təminatı və ixtisaslşamaya köməklik göstərilməlidir. Yaşıl Biznes dedikdə, enerjiyə qənaət edən və ekoloji təhlükəsiz biznes fəaliyyəti başa düşülür. Ekoloji təhlükəsiz məhsul və xidmətlərə olan tələbatın artması KOS-lar üçün bu istiqamətdə yeni fürsətlətlər yaradır.

- Üzv ölkələr KOS-ların Avropadan kənara ixracı stimullaşdırmaq yönündə tədbirlər görməli və bu istiqamətdə KOS-lara dəstək olmalıdırlar. Avropa İttifaqındakı KOS-ların sadəcə 8%-i ixracat gəliri əldə edirlər (burada ixrac gəlirləri dedikdə, Avropa İttifaqından kənardakı ölkələrə ixracat nəzərdə tutulur). Mikro müəssisələrin isə sadəcə 7%-i ixracat gəliri əldə edir. Bu faizin artırılması və KOS-ların xarici bazarlara nüfuz etmələri üçün lazımi tədbirlər görülməlidir. Başqa sözlə, KOS-ların beynəlmiləlləşməsi təmin olunmalıdır. Bu istiqamətdə sərbəst ticarət müqavilələrinin bağlanması xüsusi bir əhəmiyyət kəsb edir.

"Kiçik Müəssisələr" Qanunu nəzərdən keçirildikdə yuxarıda göstərilən 10 prinsipin dördü əsas istiqamətdə mərkəzləşməsi görülməkdədir. Bu istiqamətlər aşağıdakılardır:

- Kiçik müəssisələrin daha çox maliyyə mənbələrinə çıxışlarının təmin olunması;
- Kiçik müəssisələrin beynəlmiləlləşməsi;
- Sahibkarlığın inkişaf etdirilməsi;
- Bürokratiyanın azaldılması.

Avropa Komissiyası Avropa İttifaqının qəbul etdiyi hər bir qərarın və qanunvericilik aktının KOS-ların fəaliyyətinə müsbət və ya mənfi təsirlərini tədqiq edir və nəticələri ictimaiyyətə bildirilər. Avropa Komissiyası daxilində KOS-larla bağlı Nəzarətedici Mərkəz yaradılmışdır. Hansı ki, bu Mərkəzin iki əsas fəaliyyət istiqaməti vardır. Bunlardan birincisi, daxili siyasətlə əlaqədar Avropa İttifaqı tərəfindən qəbul edilmiş bütün qanunvericilik aktlarının KOS-ların xeyrinə olmasını təmin etmək, ikinci istiqamət isə üzv ölkələrlə əlaqədə olaraq bu qanunvericilik aktlarının KOS-ların xeyrinə tətbiqinin təmin olunmasıdır.

Avropa İttfaqı həmçinin, "2020 Sahibkarlıq Fəaliyyət Planı" hazırlamışdır (https://ec.europa.eu/growth/smes/promoting-entrepreneurship/action-plan_en, 2018). Bu Plan aşağıda qeyd olunan əsas istiqamətlər üzərində qurulmuşdur:

- Sahibkarlıq təhsili və tədrisinin genişləndirilməsi;
- Sahibkarlığın inkişaf edə biləcəyi bir mühitin yaradılması və sahibkarların maliyyə mənbələrinə daha rahat çıxışının təmin olunması;

- Müasir texnoloji mühitdə informasiya və kommunikasiya texnologiyalarından kifayət qədər yararlanmalarının təmin olunması;

- Kiçik və orta sahibkarlıq müəssisələrin köçürülməsini asanlaşdırmaq (bir nəsildən digərinə və ya qurucudan digər investorlara);

- Müflisləşmənin qarşıının alınması və iflasa uğramış sahibkarlara ikinci bir şansın verilməsi;

- Bürokratiyanın azaldılması;

- Uğurlu sahibkarların uğur hekayələrinin paylaşılması;

Bu fəaliyyət planının üzv ölkələr səviyyəsində tətbiq olunmasına nəzarət məqsədilə hər üzv ölkə hökuməti tərəfindən KOS-lar içərisindən nümayəndə təyin edilir.

Bu şəbəkəyə mənsub nümayəndələr hər iki aydan bir müntəzəm olaraq görüşərək KOS-larla bağlı problemləri müzakirə edir və eyni zamanda müntəzəm olaraq həmkarlar ittifaqları ilə görüşlər təşkil etməkdədirlər. Bu görüşlərdə qanuna dəyişikliklərin KOS-lara təsiri və nələrin ola biləcəyi müzakirə olunur. Bütün bunların nəticəsində "KOS analizi" (SME Rewiev) adında bir buroşura nəçr edirlər. Bu buroşurada "Kiçik Müəssisələr Qanunu"nda açıqlanan 10 prinsip və Fəaliyyət Planında göstərilən xüsusiyyətlər haqqında görülən tədbirlər və bu istiqamətlərdə nə qədər yol qət edildiyindən bəhs edilir.

Avropa Sənətkarlar, Kiçik və Orta Sahibkarlar Birliyi (UEAPME) Avropa İttifaqı səviyyəsində fəaliyyət göstərən bir təşkilat olub üzv ölkələrdəki sənəkar, tacir və KOS-ların marağını təmsil edir. Avropa Sənətkarlar, Kiçik və Orta Sahibkarlar Birliyi (ASKOSB) üzvləri 34 ölkədə sənətkar, tacir və KOS-ları təmsil edən 80 peşə təşkilatından ibarətdir. Bu sturkturu ilə ASKOSB təxminən 55 milyon işçi qüvvəsini və 12 milyon müəssisəni özündə birləşdirir. ASKOSB özünü sənətkar, tacir və KOS-ların səsi kimi göstərir(Leo Paul Dana, 2006: s. 199). ASKOSB-un əsas məqsədləri aşağıdakılarldır:

- Avropa İttifaqı səviyyəsində sənətkar, tacir və KOS-lara təsir edə biləcək hər bir siyasət və qanunvericilik aktlarını təqib etmək və bunların qəbul edilməsi ilə bağlı üzvlərini məlumatlandırmaq;

- Üzvlərin maraq və ehtiyaclarını qorumaq və Avropa İttifaqı qurumlarında və digər beynəlxalq təşkilatlarda bu fikirləri dilə gətirmək;

- Avropa İttifaqının qanunvericiliyi barədə üzvlərinə elmi, texniki və hüquqi yardım göstərmək;

- Avropa İttifaqında fəaliyyət göstərən KOS-ların inteqrasiyası ideyasını dəstəkləmək və Avropada əməkdaşlığa yardım etmək.

ASKOSB Avropa Birliyi tərəfindən sosial tərəfdaş kimi tanınır. Buna görə də, Avropa İttifaqı səviyyəsində qanunların qəbulu zamanı ASKOSB-un fikirləri öyrənilir.

Almaniya Federal İqtisadiyyat və Texnologiya Nazirliyinin hesabatına görə Almaniya Mittelstand müəssisələrinin uğurlarının 6 başlıca səbəbi vardır. Bu səbəblər aşağıdakı kimidir(Midland Bank Reseraches, 2007, s. 24):

1. Almaniya KOS-larının demək olar ki, hamısı ailə müəssisələridir və böyük əksəriyyəti sahibləri tərəfinədn idarə olunur. Buna görə də, bu müəssisələrdə biznes siyasəti uzunmüddətli dövr üçün planlaşdırılır.

2. Alman Mittelstand müəssisələrinin davamlı müştəri münasibətləri və sağlam inkişaf strategiyaları vardır. Müəssisələr fəaliyyət göstərdikləri bölgəyə bağlıdırlar.

3. Alman Mittelstand müəssisələri Avropadakı ən innovativ müəssisələr sırasındadırlar: 2012-2014-cü illərdə bu müəssisələrin 54%-i bazara yeni məhsullar çıxarmışdırlar.

4. Alman Mittelstand müəssisələri həm təsisçi kapitalı, həm də bank kreditlərinə əsaslanan sağlam maliyyə mənbələrinə malikdirlər. Bu müəssisələrin 54%-i təsisçi kapitalı, 29%-i bank kreditləri, 11%-i dövlətin maliyyə dəstəyi, 6%-i isə digər maliyyə mənbələri hesabına öz investisiya fəaliyyətini formalaşdırır. Bu müəssisələrin investisiya fəaliyyətində təsisçi kapitalının əsas yer tutması və davamlı inkişaf strategiyalarının mövcudluğu müəssisələrə iqtisadi böhran zamanında belə orta və uzunmüddətli investisiya qoyuluşlarına şərait yaradır.

5.	Alman Mittelstand müəssisələrinə tədqiqat və inkişaf fəaliyyəti, yüksək ixtisaslı işçi çatışmazlığı, xarici ticrət və investisiya, maliyyə ehtiyacları və sahibkarlıq fəaliyyətinin təşkili kimi məsələlərdə geniş dövlət təmin olunur. Bu dəstək əsasən, müəssisələrin aid olduqları birliklər vasitəsilə təmin olunur.

**Qrafik 1.Almaniya KOS-larının bəzi iqtisadi göstəriciləri**




**Qeyd:**Bütün müəssisələr içində KOS-ların payı (faizlə, %-lə)**Mənbə:** KOS Araşdırma İnstitutunun rəsmi internet səhifəsi(https://en.ifm-bonn.org/statistics/#accordion=1&tab=0)

6.	Alman Mittelstand müəssisələri maraqlarını təmsil edən və bəzən cəmiyyət ilə əlaqədar vacib vəzifələri öz üzərinə götürən, müəssisələrin ehtiyaclarına cavab verən birlik və dərnəklərlə sıx əməkdaşlıq etməkdədirlər.

Almaniyada ikili təhsil sisteminin nəticəsi olaraq, təhsil alan tələbələrin 83,2%-i Alman Mittelstand müəssisələrində işlə təmin olunurlar. Tələbələr təhsil müəssisələrində təhsil almaqla yanaşı müəssisələrdə təcrübə keçərək gələcəkdə yüksək ixtisaslı işçi kimi formalaşırlar.

### 2.2.Kiçik və orta biznes subyektlərnin inkişaf səviyyəsinin təhlili və qiymətləndirilməsi

Almaniyada ənənvi olaraq kiçik və orta sahibkarlıq subyektləri “Mittelstand” olaraq adlandırılır. Mərkəzi Bonn şəhərində yerləşən Almaniya Mittelstand Araşdırma Mərkəzi digər ölkələrdə istifadə olunan KOS anlayışının sadəcə statistik bir anlayış olduğunu qeyd edir və ölərinin irəli sürdükləri mittelstand anlayışının daha geniş bir məna kəsb etdiyini və burada bölgü zamanı müəssisələrin həm

kəmiyyət, həm də keyfiyyət göstəricilərinin nəzərə alındığını iddia edirlər. Almaniyada KOS anlayışı Avropadan müəyyən xüsusiyyətlərinə görə fərqlənir. Əvvəla, onu deyə bilərik ki, Avropada böyük hesab olunan (250-500 işçisi olan) müəssisələr Almaniyada kiçik və orta sahibkarlıq müəssisələrinə aid edilir. Bundan başqa, ailə biznesinin xüsusiyyətlərini daşıyan (tipik xüsusiyyətlərini, üstünlüklərini və resurs məhdudiyyətləri), həmçinin, səhmdar münasibətlərinə görə böyük müəssisələrdən fərqlənən müəssisələr də kiçik və orta biznes müəssisələrinə aid edilir.Almaniya Mittelstand Araşdırma Mərkəzi sahibkarlıq anlayışını Avropa İttifaqından fərqli olaraq aşağıdakı kimi qruplaşdırır:

- Almaniyada kiçik müəssisələrə işçilərinin sayı 10 nəfərə qədər olan, illik dövriyyəsi isə 1 milyon avroya qədər müəssisələr aid edilir
- Orta ölçülü müəssisələr dedikdə, işçilərinin sayı 500 nəfərə qədər, illik dövriyyəsi isə 50 milyon avroya qədər olan müəssisələr aid edilir.
- Böyük müəssisələrə isə işçilərinin sayı 500 nəfərdən çox olan və illik dövriyyəsi 50 milyon avrodan çox olan müəssisələr aid edilir (Lucie Pfaff, 2007: s. 37).

Burada birinci və ikinci bəndə aid olan müəssisələr kiçik və orta sahibkarlıq müəssisələri (Mittelstand) hesab olunur.

**Cədvəl 2. Almaniya sahibkarlıq müəssisələrinin işçilərin sayı və illik dövriyyəsi görə bölgüsü**

| | | İşçilərin sayı | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | **0 – 9** | **10 - 49** | **50 -249** | **250 - 499** | **00** | | |
| illik dövriyyə | **< 1 milyon avro** | 3119903 | 95202 | 12369 | 1316 | 76 | **3229566** | 99,7 % |
| | **1 - 2 milyon avro** | 81716 | 56896 | 1844 | 189 | 62 | **140807** | |
| | **2 - 10 milyon avro** | 43666 | 75243 | 16059 | 629 | 38 | **136035** | |
| | **10 - 25 milyon avro** | 3903 | 7860 | 12293 | 643 | 44 | **25043** | |
| | **25 - 50 milyon avro** | 1027 | 1576 | 5546 | 1122 | 15 | **9586** | |
| | **> 50 milyon avro** | 713 | 859 | 3272 | 2438 | 921 | **10203** | |
| **Cəmi** | | **3250928** | **237636** | **51383** | **6337** | **956** | **3551240** | |
| | | 99,8 % | | | | | | |

**Mənbə:** http://nilsdaehne.com/downloads/20180108_IGM_Lecture_WS1718.pdf

**Cədvəl 3. Almaniya sahibkarlıq müəssisələrini xarakterizə edən əsas makroiqtisadi göstəricilər**

| Göstəricinin adı | Ümumi | KOS | KOS-ların ümumidəki payı (%-lə) |
|---|---|---|---|
| Qeydiyyatdan keçmiş müəssisələr | 3 476 193 | 3 460 274 | 99.5% |
| ƏDV-yə cəlb olunan müəssisələrin sayı | 3 266 429 | 3 254 129 | 99.6% |
| Qeydiyyatdan keçmiş müəssisələr dövriyyəsi | 6 432.64 mlrd. | 2 272.92 mlrd. | 35.3% |
| ƏDV ödəyicisi olan müəssisələrin dövriyyəsi | 6 088.29 mlrd. | 2 263.42 mlrd. | 37.2% |
| İşçilərin sayı | 29.49 mln. | 17.18 mln. | 58.3% |
| Tədqiqat və inkişaf fəaliyyəti xərcləri | 79.1 mlrd. | 9.4 mlrd. | 11.9% |

**Qeyd:** Cədvəl Almaniya Mittelstand Araşdırmaları Mərkəzinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Mittelstanda aid olan müəssisələrin illik dövriyyəsi 2016-cı ildə təqribən 2,273 trilyon avro təşkil etmişdir. Almaniyada ümumi məşğulluğun 58,3%-i Mittelstand müəssisələrin payına düşür. Bu sinifə aid olan müəssisələr təxminən 17,2 milyon insanın işlə təmin olunmasına şərit yaratmış, həmçinin, bu müəssisələrin yaratdığı iş yerləri Almaniyada gənclərin işsizlik səviyyəsinin aşağı olmasına (7,2%) imkan yaratmışdır. Bunun əsas səbəbi kiçik və orta məssisələrdə yüksək ixtisaslaşmamış, iş təcrübəsi az olan gənclərin işə cəlb edilməsinə şəraitin olmasıdır. Bununla yanaşı, Almaniyada kiçik və orta sahibkarlıq müəssisələri tədqiqat və inkişaf fəaliyyəti üçün təkcə 2016-cı ildə 9,4 milyard avro vəsait sərf etmişdirlər.

Bu sinifdə yer alan müəssisələrin həyata keçirdikləri xarici ticarətin illik dövriyyəsi hər keçən il artaraq 2016-cı ildə 208,2 milyard avro təşkil etmişdir. Ölkənin ümumi ixracının isə 17%-i Mittelstand müəssisələrinin payına düşür(https://www.destatis.de/EN/Home/_node.html, 2018).

Kiçik və orta sahibkarlıq müəssisələrinin yüksək inkişaf etməsi ölkədə vergi gəlirlərinin artmasına öz müsbət təsirini göstərir. Belə ki, ölkədə yaradılan əlavə dəyərin 53%-i bu tip müəssisələrin hesabına reallaşır.

Almaniyada sənətkarlıq kiçik və orta sahibkarlığa (Mittelstand) aid edilir. Sənətkarlıq sahələri qanunvericiliklə tənzimlənir və bu sahələrdə məşğul olmaq üçün müvafiq qaydalarda qeydiyyatdan keçilməli və sertifikat tələb edən sahələrdə xüsusi ustalıq sertifikatları əldə edilməlidir. Sənətkarlıq sahələrini sinifləndirərkən nə işçilərin sayı, nə də ki, müəssisələrin illik dövriyyəsi nəzərə alınmır.

Almaniyada 147 sənətkarlıq sahəsi müəyyənləşdirilmişdir. Bunlardan 41-i A qrupu (ustalıq sertifikatı tələb edən sahələr) sənətkarlıq sahələri, 52-si B1 qrupu (ustalıq sertifikatı tələb etməyən 1-ci dərəcəli sahələr) sənətkarlıq sahələri, 54-ü B2 qrupu (ustalıq sertifikatı tələb etməyən 2-ci dərəcəli sahələr) sənətkarlıq sahələrinə aiddir.

**Sxem 2. Almaniyada sənətkarlıq müəssisələri**




**Mənbə:** http://nilsdaehne.com/downloads/20180108_IGM_Lecture_WS1718.pdf

Sxemdən də görüldüyü kimi, 2013-cü ildə Almaniyada mövcud olan 1004232 sənətkarlıq müəssisəsindən 59,5%-i, yəni 602597 müəssisə A qrup sənətkarlıq müəssisəsi; 21,8%-i, yəni 218818 müəssisə B1 qrup sənətkarlıq müəssisəsi; 18,7%-i, yəni 188226 müəssisə isə B2 qrup sənətkarlıq müəssisəsidir.

Sənətkarlıq müəssisələri arasında tikinti sektorunda fəaliyyət göstərən müəssisələr 39,2%-lə birinci, fərdi xidmətlər 21,9%-lə ikinci və ticarət sektoru 12,8%-lə üçüncü yerdə durur (https://en.ifm-bonn.org/statistics/#accordion=1&tab=0, 2016).

**Qrafik 2. Sənətkarlıq müəssisələrinin sahələr üzrə bölgüsü (faizlə)**




**Mənbə:**https://www.destatis.de/EN/Home/_node.html

## Almaniyada KOS-lara və sənətkarlara dəstək proqramları

### 1. KOS-lara Konsaltinq Xidmətlərinin Dərnəklər vasitəsilə Dəstəklənməsi Proqramı

Federal İqtisadiyyat və Texnologiya Nazirliyi tərəfindən KOS-lara konsaltinq xidmətinin göstərilməsinin təmin olunması üçündür. Nazirlik ölkə səviyyəsində 53 dərnək və 36 peşə ittifaqları sayəsində güclü və geniş bir konsaltinq şəbəkəsinə malikdir. Nazirlik bu dərnək və ittifaqlara göstərilən konsaltinq xidmətlərini maliyyələşdirməklə yardım göstərir.

Bu qurumların fəaliyyəti Federal İqtisadiyyat və Texnologiya Nazirliyi, əyalət idarələri və peşə təşkilatları tərəfindən birgə maliyyələşdirilir. Bu dəstək nəticəsində kiçik və orta sahibkarlıq subyektləri konsaltinq xidmətlərindən pulsuz yararlana bilirlər. Bir müəssisə və ya şəxs 3 il ərzində 15 gün bu xidmətdən pulsuz istifadə edə bilər. Bunun nəticəsində dərnəklər özəl konsaltinq xidmətləri göstərən təşkilatlarla haqsız rəqabətə girməmiş olurlar. Aşağıdakı qrafiklərdə 2013-cü ildə

dərnəklər tərəfindən kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən konsaltinq xidmətləri barədə məlumatlar öz əksini tapmışdır.

2009-cu ildə 54100 konsaltinq xidməti göstərilmişdir ki, bu göstərici sonrakı illərdə daha aşağı olmuşdur. 2013-ci ildə 49438 konsaltinq xidməti göstərilmiş və bu xidmətlərin göstərilməsi üçün 11,4 milyon avro vəsait xərclənmişdir.

**Cədvəl 4. KOS-lara Konsaltinq xidmətinin illər üzrə göstəriciləri**

| | Konsaltinq Xidmətinin sayı | Xidmətindəyəri (milyonavroilə) |
|---|---|---|
| 2009 | 54100 | 10,3 |
| 2010 | 46106 | 9,7 |
| 2011 | 49416 | 10,2 |
| 2012 | 48132 | 10,86 |
| 2013 | 49438 | 11,4 |

**Mənbə:** (https://en.ifm-bonn.org/statistics/#accordion=1&tab=0, 2014)

2013-cü ildə ümumi konsaltinq xidməti göstərən mütəxəssislərin sayı 850 nəfər olub, bu məsləhətçilərin 473-ü (56%) ticarət sahəsində, 377-si (44%) isə texniki sahədə ixtisaslaşmışdır. Bütün məsləhətçilər arasında müəssisələrin idarə olunması üzrə ixtisaslaşmış mütəxəssislər çoxluq təşkil edir (45%).

**Cədvəl 5. Məsləhətçilərin fəaliyyət sahələri barədə məlumat**

| Məsləhətçilərin sayı | Məsləhətçilərin fəaliyyət sahələri |
|---|---|
| 382 | Müəssisə idarəetməsi |
| 42 | Xarici ticarət əlaqələri |
| 9 | Marketinq |
| 40 | Digər sahələr |
| 473 | Ticarət sahəsində ixtisaslaşmış məsləhətçilər |
| 209 | Texniki |
| 61 | Ətraf mühitlə bağlı mövzular |
| 99 | Texnologiya transferi/innovasiya |
| 8 | Digər texniki sahələr |
| 377 | Texniki sahələrdə ixtisaslaşmış məsləhətçilər |
| 850 | Ümumi məsləhətçilərin sayı |

**Mənbə:** (https://en.ifm-bonn.org/statistics/#accordion=1&tab=0, 2014)

Federal İqtisadiyyat və Texnologiya Nazirliyi tərəfindən kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən konsaltinq xidmətinin bir digər növü

innovasiya və texnologiya konsaltinqidir. Bu xidmət 2005-ci ildən etibarən göstərilməyə başlanılmışdır. Bu xidmətin göstərilməsində əsas məqsəd müəssisələrin texnologiya və innovasiya sahəsində inkişafını təmin etməkdir. Bu dəstək haqqında aşağıdakı qrafikdə məlumatlar öz əksini tapmışdır.

**Cədvəl 6. KOS-lara göstərilən texnologiya və innovasiya konsaltinqi xidmətinin illər üzrə göstəricisi**

| İllər | Konsaltinq xidməti sayı | Tədbirlərə qatılanların sayı | Xidmətind əyəri (milyonavroilə) |
|---|---|---|---|
| 2009 | 8121 | 6575 | 1,285 |
| 2010 | 8463 | 5825 | 1,409 |
| 2011 | 7290 | 10563 | 1,412 |
| 2012 | 8018 | 7974 | 1,407 |
| 2013 | 8135 | 9128 | 1,422 |

**Mənbə:** (https://en.ifm-bonn.org/statistics/#accordion=1&tab=0, 2014)

Federal İqtisadiyyat və Texnologiya Nazirliyi tərəfindən kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən 3-cü konsaltinq xidməti isə müəsisələrin idarə edilməsi ilə əlaqədar xidmət göstərən dərnəklərin dəstəklənməsi ilə bağlıdır. Bu məqsədlə 65 dərnək dəstəklənir (illik 1,5milyon avro). Bu dərnəklər sahəvi analizlər kimi müəssisə idarəetməsinin və konsaltinq xidmətinin əsasını təşkil edən fəaliyyətləri icra edirlər.

**2. Peşə təhsilinin dəstəklənməsi Proqramı**

KOS-ların uğurlarının və rəqabətqabiliyyətliliyinin davamlılığının təmin olunması, işçilərin və menecerlərin peşə cəhətdən müasir tələblərə cavab verən texniki və iqtisadi inkişafa uyğun bilik və bacarıqlarla təmin olunması ilə bağlıdır.

Federal İqtisadiyyat və Texnologiya Nazirliyi tərəfindən təmin edilən peşə təhsili dəstəkləri aşağıdakı iki istiqamətdə cəmlənmişdir:

1. Müəssisə xarici peşə təhsilinə dəstək: Federal İqtisadiyyat və Texnologiya Nazirliyinin kiçik və orta sahibkarlıq müəssisələrində peşə təhsilinin dəstəkləməsini nəzərdə tutur. Bununla da, işçilər peşə təhsilini artırmağa maraqlı

olurlar. Bu sistemin maliyyələşdirilməsi üçün Nazirlik, əyalətlər və peşə dərnəkləri hər biri eyni səviyyədə kömək göstərirlər. Bunlar aşağıdakılara xidmət edir:

- Peşə təhsilinin texniki və iqtisadi inkişafa uyğunlaşdırılması;
- Regional peşə təhsili fərqlərinin aradan qaldırılması və müəssisəyə lazımi səviyyədə mütəxəssislərin yetişdirilməsi;
- Müəssisələrin çətin və vaxt alıcı peşə təhsili yükünün azaldılmasına kömək göstərilməsinə xidmət edir.

**Cədvəl 7. Müəssisə xarici peşə təhsili haqqında məlumat**

| İllər | Təlimlər | İştirakçıların sayı | Xidmətin dəyəri (milyon avro) |
|---|---|---|---|
| 2009 | 50327 | 458649 | 45,903 |
| 2010 | 50017 | 446064 | 47,431 |
| 2011 | 49110 | 431370 | 46,419 |
| 2012 | 49112 | 429421 | 43,440 |
| 2013 | 49091 | 422876 | 41,725 |

**Mənbə:** (https://en.ifm-bonn.org/statistics/#accordion=1&tab=0, 2014)

**Cədvəl 8. Müəssisə xarici peşə təhsili qurumlarına göstərilən yardım haqqında məlumat**

| İllər | Layihələr | Xidmətin dəyəri (milyon avro) |
|---|---|---|
| 2009 | 55 | 5,585 |
| 2010 | 40 | 4,009 |
| 2011 | 71 | 4,291 |
| 2012 | 62 | 28,064 |
| 2013 | 68 | 29,218 |

**Mənbə:** (https://en.ifm-bonn.org/statistics/#accordion=1&tab=0, 2014)

2. Müəssisə xarici peşə təhsili qurumlarının müasirləşdirilməsi və maddi-texniki təminatı. Almaniyada ölkə səviyyəsində təməl və qabaqcıl peşə təhsili verən təşkilatların müasirləşdirilməsi və yeni texnologiya ilə təchizatını həyata keçirmək üçün federal və əyalət səviyyəsində dəstəkləyici tədbirlər

görülməkdədir. Bu təşkilatların maliyyə ehtiyacları federal hökumət, yerli idarələr və peşə ittifaqları tərəfindən təmin olunur. Federal hökumətin maliyyə dəstəyi 45% (struktur cəhətdən zəif inkişaf etmiş bölgələrdə 60%) səviyyəsindədir.

## 2.3.Almaniyada kiçik və orta biznesin inkişaf etdirilməsində əsas dövlət və maliyyə dəstəklərinin mövcud vəziyyəti

Avropa İttifaqı səviyyəsində KOS-lara stimullaşdırıcı və dəstəkləyici tədbirlər

Yuxarıda qeyd olunan tədbirlərlə yanaşı Avropada kiçik və orta sahibkarlıq müəssisələrə bir çox dəstək proqramları da mövcuddur. Avropa İttifaqında KOS-lara dəstək müxtəlif səviyyələrdə həyata keçirilir. Bunlara aşağıdakılar aiddir(Horst Siebert, 2005: s. 102):

- Milli və ya regional səviyyə: Bu səviyyədəki stimullaşdırıcı tədbirlər tamamilə milli hökumətlər və regional birliklər tərəfindən formalaşdırılır və onlar tərəfindən tətbiq olunur. Milli və regional səviyyədə formalaşdırılıb tətbiq olunan stimullaşdırıcı tədbirlər üçün Avropa İttifaqının rolu bu stimullaşdırıcı tədbirlərin rəqabətə təsirini araşdırmaqdır. Bu məqsədlə, milli hökumətlər və ya regional birliklər tərəfindən formalaşdırılmış stimullaşdırıcı tədbirləri Avropa İttifaqı səviyyəsində rəqabətdən məsul Nəzarətedici Mərkəzə bildirmək məcburiyyətindədirlər.
- Avropa Struktur Fondları: Avropa Struktur Fondları KOS-lara maliyyə dəstəyi göstərmək üçün Avropa İttifaqının maliyyə fondlarından istifadə edir. Bununla yanaşı, bu fondlardan istifadə qaydaları beynəlxalq proqramlara əsasən müəyyənləşdirilir. Avropa İttifaqı öz maliyyə mənbələrindən üzv ölkələrə vəsait ayırır və bu vəsaitlər üzv ölkələr tərəfindən müəyyən olunmuş iqtisadi siyasətə uyğun olaraq KOS-ların inkişafına yönəldilir. Məsələn, bir ölkədə iqtisadi siyasətin əsas hədəfi işsizliyin azaldılması, digər bir ölkədə isə rəqabətin inkişaf etdirilməsi ola bilər, dolayısı ilə, maliyyə vəsaitləri bu siyasətlərə uyğun olaraq bölüşdürülür. Buna görə də, üzv ölkələr öz milli iqtisadi siyasətlərinin Avropa İttifaqının siyasətlərinə uyğunlaşdırmalıdırlar. Bu fondların əsas məqsədi gəlir, sərvət və fürsətlər baxımından regional inkişaf səviyyəsindəki fərqlərin azaldılması

olduğuna görə, Avropa İttifaqının nisbətən az inkişaf etmiş üzvləri bu fondlardan daha çox istifadə edirlər.

- Avropa İnvestisiya Bankı: Avropa İnvestisiya Bankı, üzv ölkələrdəki tərəfdaş banklar vasitəsilə KOS-lara münasib faiz dərəcəsi ilə maliyyə dəstəyi təmin edir. Avropa İnvestisiya Bankı üzv ölkələrdəki tərəfdaş banklara müəyyən bir limit tətbiq edir və banklar bu limit daxilində KOS-ları kreditləşdirə bilirlər. Maliyyə dəstəyinin bu şəkildə tətbiq olunmasının səbəbi, tərəfdaş bankların yerli kiçik və orta sahibkarlıq müəssisələrini daha yaxşı tanımaları və iqtisadi şəraiti daha yaxşı bilmələrindən irəli gəlir. Banklar kredit verilməsi ilə bağlı araşdırmaları özləri həyata keçirir və kredit təminatı ilə bağlı qərarları özləri verirlər. Bəzi hallarda, məsələn, geniş həcmli layihələr olduqda istisnalar ola bilir, müəssisələr birbaşa Avropa İnvestisiya Bankına müraciət edə bilirlər. Bu hallarda Avropa İnvestisiya Bankı layihənin texniki-iqtisadi əsaslandırılması üçün texniki dəstək göstərir. Bundan başqa, Avropa İnvestisiya Bankı həmçinin, mikro-maliyyə dəstəyi də (25,000 avroyaqədər kredit) təmin edir. 2011-ci ilin dekabr ayının sonuna kimi Avropa İnvestisiya Bankıtərəfindən təqdim edilən mikromaliyyələşdirmə məbləği 548 milyon avroya çatmışdır. Avropa İnvestisiya Bankıtərəfindən kiçik və orta sahibkarlıq müəssisələrinin maliyyələşdirilməsi məqsədilə 2019-cu ilin fevral ayına qədər 23,3 milyard avro vəsait ayrılmışdır. Bu vəsait 374 min müəssisəni əhatə edir. Maliyyələşmə nəticəsində 5 milyon yeni iş yeri yaradılmış və bu, işsizliyin azaldılmasına əhəmiyyətli dərəcədə öz təsirini göstərmişdir.

- Avropa İttifaqının Maliyyə Proqramları: 2014-2020-ci illər Avropa İttifaqının Maliyyə Proqramında KOS-ları əlaqələndirən iki əsas proqram möcvuddur. Birinci Proqram KOS-ların rəqabətqabiliyyətliliyini artıra bilmək üçün "Müəssisələrin və KOS-ların Rəqabətqabiliyyətliliyi Proqramı"dır (Programme for the Competitiveness of Enterprises and SMEs – COSME). Bu Proqramda əsas məqsəd kimi sahibkarlığın dəstəklənməsi, maliyyə mənbələrinə daha yaxşı çıxış imkanlarının təmin olunması, KOS-ların beynəlmiləlləşməsi və yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi qarşıya qoyulmuşdur. İkinci Proqram Horizon

2020 Proqramıdır. Horizon 2020 Proqramının 3 əsas məqsədi vardır: 1) iqtisadi böhrana çarə tapmaq; 2) Avropa İttifaqının hər bir vətəndaşının fərdi ehtiyaclarına cavab verə bilmək və 3) Avropa İttifaqının qlobal mövqeyini yaxşılaşdırmaq. Bu Proqram çərçivəsində 2014-2020-ci illər ərzində elmi tədqiqatlar və innovativ ideyaların maliyyələşdirilməsi üçün 80 milyard avro miqdarında maliyyə ayrılması planlaşdırılır.

Müəssisələrin və KOS-ların Rəqabətqabiliyyətliliyi Proqramı

Müəssisələrin və KOS-ların Rəqabətqabiliyyətliliyi Proqramı: 2014-2020-ci illəri əhatə edən Avropa İttifaqı dəstək proqramıdır. Proqramın hədəf kütləsi KOS-lar, müəssisələri dəstəkləyən təşkilatlar, investorlar, regional və milli idarələrdir. Yuxarıda qeyd edilən əsas məqsədə uyğun olaraq, bu proqramın 4 əsas hədəfi vardır:

1. KOS-ların maliyyəyə çıxış imkanlarının asanlaşdırılması;
2. Turizm sektorundakı müəssisələr də daxil olmaqla, bütün müəssiələrin rəqabətqabiliyyətliliyi və davamlılığının artırılması üçün imkanların genişləndirilməsi;
3. Sahibkarlıq fəaliyyətinin stimullaşdırılması;
4. İttifaq daxili və beynəlxalq bazarlara çıxışın asanlaşdırılması(http://esnaf.gtb.gov.tr/data/54ace8d9f293705988210506/ckt.pdf, 2014).

Bu hədəflərə çatmaq üçün Müəssisələrin və KOS-ların Rəqabətqabiliyyətliliyi Proqramında aşağıdakı tədbirlərin görülməsi planlaşdırılmışdır:

1. KOS-ların maliyyəyə çıxış imkanlarının asanlaşdırılması hədəfi çərçivəsində aşağıdakı tədbirlər nəzərdə tutulur:

- Kreditlərin sığortalanması.Bu proqramda bankların və kredit təşkilatlarının KOS-lara verdikləri kreditlər sığortalanır. Başqa sözlə desək, KOS-ların kredit imkanlarını genişləndirmək üçün Proqram KOS-ların götürdükləri kreditlərin ödənməsinə zəmanət verir (KOS-lara zamin durular). Bu fəaliyyət nəticəsində KOS-ların səhmlərinin dəyəri artır və onların likvidlik əmsalı yüksəlir. Burada əsas məqsəd, yuxarıda da qeyd olunduğu kimi kredit təşkilatlarının risk ehtimalını azaltmaq və KOS-lara daha çox kredit verilməsini təmin etməkdir. Bunun

nəticəsində, banklardan kredit əldə edə bilməyən kiçik müəssisələrin kreditlərə çıxış imkanlarının təmin edilməsi planlaşdırılır. Kreditlərin sığortalanması imkanından faydalanmaq istəyən KOS-lar öz ölkələrində Avropa İnvestisiya Bankı tərəfdaşlıq edən yerli kredit təşkilatlarına müraciət etmələri kifayətdir.

- İnvestisiya imkanlarının genişləndirilməsi. Proqram çərçivəsində yeni yaranmış və inkişaf mərhələsində olan KOS-lara risk səviyyəsi yüksək olan kreditlər verən maliyyə təşkilatlarına (vençur maliyyələşməsi) Avropa İttifaqı tərəfindən maliyyə dəstəyi göstərilir. Bu dəstəyin məqsədi fondların maliyyə resurslarını gücləndirmək və KOS-lara daha çox investisiya qoymalarını təmin etməkdir.

2. Turizm sektorundakı müəssisələr də daxil olmaqla, bütün müəssiələrin rəqabətqabiliyyətliliyi və davamlılığının artırılması üçün imkanların genişləndirilməsi hədəfinə nail olmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- KOS-lara tətbiq olunan hüquqi tənzimləmələrin azaldılması. Lazımsız hesabat və məlumat öhdəliklərini aradan qaldıraraq, KOS-ların bürokratik yüklərini azaltmaq məqsədi daşıyır. Araşdırmalar göstərir ki, KOS-lar böyük müəssisələrə nisbətən hüquqi tənzimləmələrdən daha çox zərər çəkirlər.

- KOS siyasətinin yaxşılaşdırılması və digər üzv ölkələrlə paylaşılmasını təmin etmək üçün milli hökumətlərin həyata keçirdiyi ən yaxşı təcrübələrin müəyyənləşdirilməsi. KOS-ları və investorları sahibkarlıq fəaliyyətinə stimullaşdıran milli, regional və yerli səviyyədə fəaliyyət göstərən dövlət və qeyri-hökümət təşkilatları üçün Avropa Sahibkarlıq Mükafatı təşkil olunmuşdur.

- KOS-lara dəstək verən daha yaxşı proqramların hazırlana bilməsi üçün analitik tədqiqatların aparılması. Avropa İttifaqı və milli səviyyədə, Kos-lar haqqında yeni qanun və qaydaların hazırlanmasına kömək etmək və üzv dövlətlərdə həyata keçirilən proqramların nəticələrini müqayisə etmək üçün konfransların təşkil edilməsi və "Rəqabətqabiliyyətlilik Hesabatı" kimi analitik alətlərin hazırlanması dəstəklənir.

3. Sahibkarlıq fəaliyyətinin stimullaşdırılması hədəfinə nail olmaq üçün nəzərdə tutulmuş tədbirlərə aşağıdakıları aid edə bilərik:

- Qadın Sahibkarlar üçün Avropa Mentorlar (Məsləhətçi) Şəbəkəsi. Bu mentorlar start-up və inkişaf mərhələsində olan qadın sahibkarlar üçün məsləhətlər və dəstək verirlər

- Gənc sahibkarlar üçün Erasmus Proqramı. Bu Proqramda yeni sahibkarlar digər ölkələrdəki təcrübəli sahibkarlarla fikir mübadiləsi edir və 1-6 ay arası birlikdə işləyərək əməkdaşlıq imkanlarından faydalanırlar. Gənc sahibkarın digər ölkədəki xərclərinin bir qismi Avropa İttifaqı fondları tərəfindən qarşılanır.

4. İttifaq daxili və beynəlxalq bazarlara çıxışın asanlaşdırılması hədəfinə uyğun olaraq aşağıdakı informasiyaları əldə etmək üçün “Avropa Sahibkarlıq Şəbəkəsi” yaradılmışdır:

- Avropa İttifaqı proqramlarından necə istifadə etmək barədə məlumat;
- Xaricdə tərəfdaş tapmaqda köməklik göstərmək;
- Avropa İttifaqının maliyyə dəstəyindən necə istifadə etmək barədə məlumat;
- İnnovasiya və texnologiya əməkdaşlığı sahəsində dəstək;

1. Kiçik və orta müəssisələrin Avropa İttifaqının qaydalarına dair fikirlərini öyrənmək (http://esnaf.gtb.gov.tr/data/54ace8d9f293705988210506/ckt.pdf, 2014).

Horizon 2020 Proqramı

Horizon 2020 80 milyard avro büdcəsi ilə Aİ-də ən böyük araşdırma və yenilik proqramıdır.Horizon 2020 yalnızca KOS-ların faydalana biləcəyi bir proqram olmayıb, həmçinin, istənilən müəssisənin tədqiqat, inkişaf və innovasiya fəaliyyətlərini həyata keçirmək üçün yararlana biləcəkləri bir proqramdır. Əslində bu proqramda KOS-ları əlaqələndirən hissə çox azdır. Proqram sadəcə olaraq, tədqiqat və inkişaf potensialı olan KOS-lara istiqamətlənir. (http://esnaf.gtb.gov.tr/data/54ace8d9f293705988210506/ckt.pdf, 2014).

Almaniyada kiçik və orta sahibkarlığı dəstəkləyici və stimullaşdırıcı tədbirlər

Almaniyada həm federal dövlət, həm də əyalətlər səviyyəsində kiçik və orta sahibkarlığa və sənətkarlığa göstərilən bir sıra dəstəkləyici tədbirlər mövcuddur. Bu qurumların fəaliyyətinə qısa şəkildə nəzər salaq.

1. Almaniya Federal İqtisadiyyat və Texnologiya Nazirliyi

Almaniya Federal İqtisadiyyat və Texnologiya Nazirliyinin əsas funksiyası Almaniyada müasir iqtisadi əlaqələrin formalaşdırılması və iqtisadi rifah halının yaxşılaşdırılması üçün bütün vətəndaşların aktiv iştirak edə biləcəyi lazımı şəraitin yaradılmasıdır. Nazirliyin bu istiqamətdə əsas hədəfləri aşağıdakılardır:

- Almaniyada davamlı inkişaf və rəqabət imkanlarının yaradılması;
- Yüksək məşğulluq səviyyəsinə çatmaq;
- Kiçik və orta sahibkarlığın gücləndirilməsi;
- İqtisadiyyatda rəaqbətqabiliyyətliliyi təmin etmək üçün texnologiya və innovasiya fəaliyyətinin stimullaşdırılması;
- İqtisadi hədəflərlə ekoloji məqsədlərin uuyğunlaşdırılması;
- Beynəlxalq əmək bölgüsü və ticarətin dərinləşdirilməsi;
- Sənaye cəmiyyətindən informsiya cəmiyyətinə keçidin təmin olunması;
- Ölkədə enerji təhlükəsizliyinin təmin olunması(Horst Siebert, 2005: s.87).

2013-ci ilin statistik məlumatlarına görə Nazirliyin illik büdcəsi təxminən 6 milyard avro təşkil etmişdir. Bu göstərici Federal Büdcənin 1,97%-nə bərabərdir. Bu büdcədən KOS-lara ayrılan hissə 874 milyon avro təşkil edir. Kiçik və orta sahibkarlığa ayrılmış vəsaitin 583 milyon avrosu “müəssisə investisiyaları və iqtisadi infrastruktura yönəldilmiş tədbirlər”, 87 milyon avro “peşə təhsilinə dəstək”, 83 milyon avro “innovativ müəssisələrə dəstək” və 40 milyon avro isə “vençur kapitalına dəstək” məqsədləri üçün istifadə olunmuşdur(https://www.destatis.de/EN/Home/_node.html, 2014).

Nazirliyin KOS-lara dəstək proqramlarında aşağıdakılar əsas götürülür:

- Nizamnamə kapitalına dəstək;
- Müəssisələrin maliyyələşdirilməsi;
- İnnovativ fəaliyyətlərə dəstək;
- Enerjiyə və ətraf mühitin qorunmasına ayrılmış investisiyalara dəstək;
- Sahibkarlara investisiya və kapital qoyuluşlarını düzgün həyata keçirilməsi istiqamətində məsləhət və məlumatverici dəstəklər.

Almaniya Federal İqtisadiyyat və Texnologiya Nazirliyi KOS-lara dəstək siyasəti ilə yanaşı sənətkarlara da xas dəstək siyasəti də yeridir. Sənətkarlara yönəlmiş siyasətlərin əsas hədəfləri sənətkarlıq müəssisələrinin miqyasından qaynaqlanan çatışmazlıqlarını aradan qaldırmaq, əsas və qabaqcıl peşə təlimlərini dəstəkləyərək yeni texniki heyətin formalaşmasınakömək etmək və konsaltinq xidmətləri göstərməklə müəssisələrin yeni məhsul və xidmətlərlə yeni bazarlara daxil olmasına yardım göstərməkdən ibarətdir. Nazirliyin sənətkarlığa dəstəkləri aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- Sənətkarlıq müəssisələrinin sahibkarlıq və nou-hou fəaliyyətlərinin konsaltinq xidməti göstərməklə dəstəklənməsi;
- Peşə təhsilinin dəstəklənməsi;
- Almaniya Sənətkarlıq İnstitutunun fəaliyyətinin dəstəklənməsi;
- Münhün Beynəlxalq Sənətkarlıq Sərgisinin təşkili.

2. Almaniya İnvestisiya Bankı (AİB)

Almaniya İnvestisiya Bankının əsası 1948-ci ildə qoyulmuşdur. Artıq 2012-ci ildə burada çalışan işçilərin sayı 5190-a, bankın aktivlərinin ümumi dəyəri isə 512 milyard avroya çatmışdır. Bank özünün 70-dən çox filial və nümayəndəlikləri ilə müəssisələrin inkişafına dəstək verən dünya səviyyəli inkişaf bankıdır. Bank sektorunun müxtəlif sahələrində xidmət göstərən AİB-in əsas hədəfləri arasında KOS-lar, Almaniyadakı yerli idarələr və ixracatçılar ilə yanaşı inkişaf etməkdə olan ölkələrdəki iqtisadi inkişaf layihələri vardır(Leo Paul Dana, 2006, s.78). Bankın mövcud fəaliyyətlərinə KOS-lara əlverişli kreditlərin verilməsi, infrastruktur və ipoteka maliyyələşməsi, iqlim dəyişiklikləri ilə mübarizə fəaliyyətlərinin maliyyələşdirilməsi, ixracat potensialının maliyyələşdirilməsi və inkişaf etməkdə olan ölkələrdəki inkişaf layihələrinin maliyyələşdirilməsi aiddir. Almaniya İnvestisiya Bankı yarandığı ilk dövrlərdə dövlət fondlarından istifadə edərək xidmət göstərsə də, hazırda, dəstək portfelinin 94%-i investisiya bazarlarından qazandığı vəsaitlər hesabına formalaşır.

KOS-ların maliyyələşdiriləmsi məsələsi 1970-ci illərdən etibarən önəm qazanmağa başlamışdır. AİB yeni qurulmuş müəssisə və KOS-larla əlaqədar bütün

imkanlarını bir araya gətirməklə bir müəssisənin fəaliyyətinin bütün mərhələlərində maliyyələşmə ehtiyaclarını qarşılamağı mühüm vəzifə kimi müəyyənləşdirmişdir. Maliyyə dəstəyi ilə yanaşı AİB kiçik və orta sahibkarlıq üçün konsaltinq və informasiya xidməti də göstərməkdədir. Bnunla yanaşı, Almaniya İnvestisiya Bankı KOS-lara dəstək göstərən digər kredit təşkilatları ilə əməkdaşlıq edərək onların fəaliyyətlərini və kreditləşdirmə imkanlarını dəstəkləyirlər.

Federal Məşğulluq Agentliyi

Almaniya əmək bazarının ən önəmli subyekti olan Federal Məşğulluq Agentliyi (FMA) öz idarəetmə strukturu və büdcəsi olan müstəqil dövlət qurumudur. Mərkəzi Nürnberqdə yerləşir. Agentliyə aid 10 Regional İdarə, 156 məşğulluq agentlikləri, 604 şöbə və yerli idarəetmə orqanları ilə ortaq çalışan 306 işədüzəltmə mərkəzi mövcuddur.

**Qrafik 3. Federal Məşğulluq Agentliyinin təşkilati strukturu**




**Mənbə:** Federal Məşğulluq Agentliyinin internet saytı(https://www.arbeitsagentur.de/privatpersonen)

Təşkilati strukturun başında İdarə Heyəti vardır. İdarə Heyəti sədr və üzvlərdən ibarətdir. FMA vətəndaşlara, müəssisə və təşkilatlara əsas vəzifəsi olan iş və işçi tapmaq xidməti ilə yanaşı, peşə təhsili istiqamətində də əhəmiyyətli işlər görür. Bu xidmətləri yerinə yetirmək üçün FMA-nın bütün ölkəni əhatə edən

məşğulluq agentlikləri və şöbələri vardır. FMA-nın əsas vəzifələri aşağıdakılardır(Kaevan Gazdar, 2002: s. 156):

- İş və peşə təhsili mərkəzləri yaratmaq;
- Vətəndaşlara peşə məsləhətləri;
- Sahibkarlara işəgötürmə ilə bağlı dəstəklər;
- Peşə təhsilinin təşkilinə dəstək;
- Peşə təhsilinin müasirləşdirilməsinə dəstək;
- Əlillərin işlə təmin olunmasına dəstək;
- Yeni iş yerlərinin yaradılmasına və mövcud iş yerlərinin qorunmasına dəstək;
- Maddi dəstək, məsələn işsizlərə və müflisləşmiş sahibkarlara maddi dəstək xidmətləri.

3. Bayer Biznes İnkişaf Bankı

Bayer Biznes İnkişaf Bankı Bayer əyalətində fəaliyyət göstərən sahibkarlığı stimullaşdırıcı təşkilatdır. Qanunvericilik əsasında qurulmuş bu təşkilat 1951-ci ildə yaradılmış, mərkəzi Münhen şəhərində yerləşdirilməkdədir. İkinci Dünya Müharibəsindən sonra Bayer əyalətinin iqtisadi geriliyinin aradan qaldırılması və iqtisadi inkişafının təmin olunması mqsədilə yaradılmışdır. Hazırda Bankın əsas vəzifələri iqtisadi artım, innovasiya, ətraf mühitin qorunması və davamlı inkişafın təmin olunması üçün fəaliyyətlərin maliyyələşdirilməsidir. Hədəf kütləsi Bayer əyalətindəki kiçik və orta sahibkarlar və investorlardır. Bayer Biznes İnkişaf Bankının əsas vəzifələri aşağıdakılardır:

- Yeni yaranmış müəssisələrin bazara girişinin təmin edilməsi;
- KOS-ların effektiv fəaliyyətini təmin etmək və iqtisadi inkişaf layihələrini dəstəkləmək;
- Bazara yeni əmtəə və xidmətlər çıxaran müəssisələrin dəstəklənməsi;
- İşçilərin maraqları qorunmaq şərtilə iqtisadi böhranla üzləşmiş müəssisələrə yardım etmək;
- Bayer əyalətinin iqtisadiyyatının inkişaf etdirilməsi üçün xaricə investisiya qoyuluşlarının dəstəklənməsi;

- Digər kredit təşkilatları ilə əməkdaşlıq edərək böyük layihələrin maliyyələşdirilməsini sığortalamaq.

Bütün kreditləşmə əməliyyatları Hausbanklar vasitəsilə kreditləşmə üçün sahibkarların müraciəti əsasında həyata keçirilməkdədir. Hausbank dedikdə, stimullaşdırıcı kreditlər verməyə hazır olan bütün kommersiya bankları nəzərdə tutulur.

Bayer Biznes İnkişaf Bankı 2012-ci ildə 2,5 milyard avro kredit verməklə 5400 müəssisəyə maliyyə yardımı etmiş və 6100-dən çox şəxsin işlə təmin olunmasına şərait yaratmışdır. Bank bu kreditləşməni həyata keçirmək üçün maliyyə mənbələrini əsasən, maliyyə bazarlarındakı fəaliyyəti və səhm satışlarından təmin edir.

4. Şimali Reyn-Vestfaliya Bankı

Almaniyanın ən böyük əyaləti olan Şimali Reyn-Vestfaliya əyalətində fəaliyyət göstərən inkişaf bankıdır. Əsas məqsədi həmin əyalətdə infrastrukturun və iqtisadi inkişafın təmin olunması olan bank 2012-ci ildə fəaliyyətə başlamışdır. Mərkəzi Düsseldorf şəhərində yerləşən bankın aktivlərinin ümumi dəyəri 149 milyard avro, nizamnamə kapitalı 17 milyard avro, işçilərinin sayı 1258 nəfər təşkil edir. Bank bu göstəriciləri ilə Almaniyanın ən böyük əyalət bankıdır(Lucie Pfaff, 2007: s. 82).

Müştərilərinə kreditlərin verilməsindən özəl konsaltinq xidmətlərinə qədər geniş dairədə xidmətlər göstərən Bank, eyni zamanda yeni yaranmış müəssisələrin və KOS-ların inkişafına dəstək göstərilməsi üzrə ixtisaslaşmışdır. Avropa İttifaqı və federal hökumətin maliyyə fondları da daxil olmaqla müxtəlif maliyyə mənbələrindən istifadə edən Bank aşağıdakı əsas funksiyaları icra edir:

- Kiçik və orta sahibkarlıq müəssisələrinin yaradılması, inkişaf etdirilməsi və gücləndirilməsinə maliyyə dəstəyi;
- Sosial evlərin tikilməsini dəstəkləmək;
- Riskli investisiyaların (vençur kapitalı əsasında) qoyulmasına dəstək olmaq;
- İnfrastruktur layihələrini dəstəkləmək;
- Texnologiya və innovasiyanı dəstəkləmək;

- Sosial, mədəni və elmi layihələri dəstəkləmək.

Fəsildə bəhs etdiyimiz qurumların və təşkilatların fəaliyyət çərçivəsinə nəzər saldıqda görünür ki, hər bir qurumun funksiyaları qanunvericilik və nizamnamələri ilə müəyyənləşdirilmiş və özünəməxsusdur. Almaniya Federal İqtisadiyyat və Texnologiya Nazirliyinin KOS-lara dəstəyi hüquqi və konsaltinq xidmətlərinin təmin edilməsi istiqamətində, Məşğulluq Agentliyinin fəaliyyəti ixtisaslı kadrlarla təminat istiqamətində, Bankların həm federal dövlət, həm də əyalətlər səviyyəsində maliyyə dəstəyi göstərilməsi istiqamətində öz funksiyalarını icra edirlər.

## III Fəsil: Azərbaycanda kiçik və orta biznes subyektləri və Almaniya və Azərbaycan iqtisadiyyatının qarşılıqlı əlaqələri

### 3.1. Azərbaycanda kiçik və orta biznes subyektlərinin inkişafında müasir dövrdə dövlət qayğısının əsas istiqamətlərinin təhlili

Rəqabət mühitinin kəskinləşdiyi müasir dövrdə kiçik və orta biznes subyektlərinə iqtisadi, sosial, normativ-hüquqi, texniki-təşkilati dəstək və qayğıya ehtiyac artmaqdadır. Belə ki, kiçik və orta biznes subyektlərinin iri müəssisə və transmilli kooperasiyaların iqtisadi gücünün təsiri altında qalmaması və bazarda rəqabət mühitinin qorunması üçün belə bazar subyektlərinə hərtərəfli dəstək yalnız dövlət tərəfindən həyata keçirilə bilər. Tədqiqat işinin birinci fəslində də qeyd etdiyimiz KOS-un ölkə iqtisadiyyatında oynadığı rolu və əhəmiyyətini nəzərə alaraq bu dəstəyin dövlətin maraqları ilə tam şəkildə üst-üstə düşdüyünü deyə bilərik.

Bazarın bütün həlqələrinin təşkilinin yüksək səviyyəsinin təmin edilməsi normal sahibkarlıq fəaliyyəti üçün zəruridir. Burada əsas məsələ sahibkarlığın inkişafı üçün konkret təşkilati forma və institutlarının yaradılmasından ibarətdir və əsasən 2 istiqamətdə həyata keçiriləcək işləri nəzərdə tutulur (A.M.Məhərrəmov, 2009: s.39):

1. Mövcud obyektlərin bazar münasibətlərinin tələblərinə uyğun yenidən qurulması
2. İqtisadi sistemin dəyişməsi ilə bağlı yaranan institutların transformasiyasına nail olunması.

Ölkədə infrastruktur və institusional strukturların yenisinin yaranması zəruri olduğu kimi, mövcud olanların da dəyişilməsi lazım gəlir. Keçid iqtisadiyyatı dövründə müəyyən vaxt ərzində köhnə və yeni institutlar və infrastruktur bir birinə qovuşur və yanaşı mövcud olur. Dövlət keçid dövrü şəraitində köhnə institutların dağılması və yeni institutların yaranması nəticəsində meydana çıxan ziddiyyətlərin həllinə yardım etməli, onların fəaliyyətinə şərait yaratmalı, institusional sistemin fasiləsiz olaraq dəyişdirilməsini təmin etməlidir.

Sahibkarlığa göstərilən dövlət yardımları və dəstəkləri müəyyən çərçivəyə və beynəlxalq təcrübəyə uyğun şəkildə tərtib olunmalı və həyata keçirilməlidir. Bu zaman müəyyən prinsiplərə əməl edilməsi vacibdir. Bu prinsipləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

- Sistemlilik prinsipi. Dövlətin yerinə yetirdiyi iqtisadi siyasət müəyyən məqsədlərin reallaşdırılmasına xidmət etməli və görülən bütün tədbirlər bir sistem halında tətbiq olunmalıdır. Azərbaycanda tətbiq olunan "bir pəncərə" sistemi sahibkarlığa dəstəyin sistemliliyinin təmin edilməsinə şərait yaradır. Qeyd edək ki, "bir pəncərə" sistemi 1970-ci ildən başlayaraq İBM şirkəti tərəfindən hazırlanmış və tətbiq edilməyə başlanılmışdır. Birləşmiş Ştatlarda bu sistemin yaradılması tarixi 1970-1997-ci illərə əhatə edir. İBM-in hazırladığı sistemə uyğun olaraq qeydiyyatla bağlı bütün informasiyalar MARK İV fayl sistemində toplanmağa başlanmışdır. 1990-cı ilədək isə bu göstəricilər mərkəzləşdirilmiş sistemdə cəmləşdirilmişdir. ABŞ-da 1990-cı ildən sonra müəssisələrin sayının artması regional "bir pəncərə" sistemlərinin yaradılmasına gətirib çıxarmışdır. 1998-ci ildə isə "bir pəncərə" sistemində qeydiyyat prosedurlarını daha da sadələşdirmək məqsədilə HP şirkəti ORACLE fayllarının tətbiqinə başladı. 1998-ci ildə keçid ölkələrində ilk dəfə Macarıstanda bu sisteminin tətbiqinə başlanıldı. Qonşu Gürcüstanda həmin sistem ötən ildən tətbiq edilməyə başlamışdır. Dünya Bankının tədqiqatlarına görə, bu sistemin tətbiqi qonşu ölkədə biznesin inkişafına, xüsusən də yeni biznes subyektlərinin yaradılmasına pozitiv təsir göstərmişdir(http://www.cesd.az/wp/economic-8.htm).

Azərbaycanda isə "bir pəncərə" sistemi 25 oktyabr 2007-ci ildə verilmiş"Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Sərəncam ilə tətbiq olunmağa başlanılmışdır. Bu, sahibkararın müraciətlərinə baxılması, yeni sahibkarlıq subyektlərinin qeydiyyata alınması və sahibkarlara göstərilən yardımların sistemləşdirilməsinə imkan yaratmışdır.

- Şəffaflıq prinsipi.Demokratik və suveren bir dövlətin həyata keçirdiyi bütün sosial, ictimai və iqtisadi siyasətlər ilk növbədə şəffaflıq prinsipi əsasında

aparılmalıdır. Şəffaflıq prinsipinin təmin olunması dövlətin yerinə yetirdiyi siyasətdə ədalətlilik, bərabərhüquqluluq və qanunvericiliyin normalarına riayət olunması məsələsindən asılıdır. İlk növbədə sosial statusundan asılı olmayaraq bütün vətəndaşların və sahibkarların müraciətlərinə cavab verərkən dövlət özünün müəyyənləşdirdiyi qanunlara və normativ aktlara uyğun xidmət göstərməlidir. Şəffaflıq təmin olunması üçün dövlət orqanları, qurumları, müəssisə və təşkilatları öz fəaliyyətlərinin nəticələri haqqında periodik olaraq həm ölkə prezidentinə, həm də ictimaiyyətə mütəmadi olaraq hesabat verməlidirlər.

Yalnız bütün bu tədbirlərin görülməsi nəticəsində demokratik dövlətin ən böyük problemi olan korrupsiyaya qarşı mübarizənin inkişafına və xalq arasında dövlət orqnlarına olan ictimai etimadın gücləndirilməsinə nail olmaq mümkün olacaqdır.

- Fasiləsizlik prinsipi. Sahibkarlğa göstərilən dövlət dəstəklərində fasiləsizliyin təmin olunması ən əsas prinsiplərdən biridir. Sahibkar olmaq üçün müraciət edən hər bir şəxsin fəaliyyətinin sonrakı mərhələlərində də dövlət öz dəstəyini əsirgəməyərək, bu dəstəyin fasiləsizliyinin təmin olunmasına nəzarət etməlidir. Sahibkarlıq fəaliyyətinin hər bir mərhələsində – biznes planın qurulması, müəssisənin yaradılması üçün müraciət, müəssisənin yaradılması, inkişaf dövrü və yetkinlik – tələbə uyğun dövlət dəstəklərinin göstərilməsi təmin olunmalıdır. Hər bir mərhələyə müvafiq olaraq mütəxəssis məsləhəti, maliyyə dəstəyi (qrantlar, subsidiyalar, dotasiya, subvensiya), güzəştli kreditlər və ssudalar, vergi güzəştləri, dövlət zəmanətinin verilməsi və s. kimi dövlət yardımları göstərilməlidir.

- Səmərəlilik və nəticəlilik prinsipi.Səmərəlilik prinsipini sahibkarlığa dəstək məqsədilə istifadə olunan resurslardanəldə olunan nəticələrin ən yaxşı formasını təmin edən idarəetmə bacarığı kimi başa düşə bilərik. Nəticəlilik sosial və ictimai problemlərin uğurlu həllinə və hökümət tərəfindən sahibkarlığa göstərilən dövlət yardımları qarşısında qoyulan məqsədlərə nail olmaq kimi başa düşülür.

- Nəzarət prinsipi. Dövlətin sahibkarlığın inkişafına təkan vermək üçün göstəriləcək yardımları müəyyənləşdirərək həyata keçirməsi qədər, bu tədbirlərin icrasına nəzarəti təşkil etməsi də mühüm əhəmiyyət kəsb edir. Nəzarətin düzgün

olması bu kimi yardımların həyata keçirilməsinin digər dörd prinsipin təmin olunmasına gətirib çıxarır.

Beynəlxalq təcrübə göstərir ki, sahibkarlığın formalaşması zamanı dövlət əsasən aşağıdakı funksiyaları həyata keçirir (Qasımov F.H., İsmayılov İ.H., 2008: s.536).

Birinci funksiya iqtisadiyyatın bütün sahələrində öz imkanları və riski hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasına imkan yaratmaq, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırmaq.

İkinci funksiya isə əsl iqtisadi yaşı imkan verən, rəqabət mühitini formalaşdırmaq, hansı ki, o rəqabət üstünlüyü elmin son ayətlərindən əsaslanan texnika və texnologiyaların fasız eyniləşdirilməsinə; innovasiya menecmentinin və marketinqinin tətbiqinə; sahibkarların innovasiya və risk qabiliyyətlərinin tam reallaşdırılmasına; mülkiyyətin dövlətsizləşdirilməsinə və səmərəli özəlləşdirilməyə; yaxşı işlənmiş antiinhisar siyasəti mexanizmindən səmərəli tətbiqinə; elmtutumlu, rəqabətqabiliyyətli məhsulların ixracının səmərəli proteksionizminə əsaslanır.

Üçüncü funksiya istehsal dairəsində sahibkarlıq strukturlarının yaradılmasının məqsədəuyğun istiqamətləndirilməsi və stimullaşdırılması vasitəsilə innovasiyaya əsaslanan yüksək keyfiyyətli əmtəələrin və xidmətlərin təklifinin sabit artımına şərait yaratmaq.

Sahibkarlığın inkişafına dövlət yardımı və onun tənzimlənməsi, yuxarıda qeyd edilənlərdən əlavə, həm də innovasiya məhsullarına tələbatın stimullaşdırılması funksiyasın da yerinə yetirir. Bu məqsədlə elmtutumlu məhsulların alınması üçün dövlət sifarişlərinin verilməsi təcrübəsi geniş tətbiq edilir.

Ən əsas funksiyalardan biri sahibkarlığın formalaşması və inkişafının sosial yönümlü olmasının təmin edilməsidir. Bu funksiyanın yerinə yetirilməsi sahibkarlıq strukturlarının həm iqtisadi, həm də sosial cəhətdən səmərəli olmasını nəzərdə tutur.

Sahibkarlığa dövlət köməyinin və onun tənzimlənməsinin qeyd edilən funksiyaları o vaxt səmərəli həyata keçirilə bilər ki, onların reallaşdırılması müəyyən qanunauyğunluqlara söykənsin. Beynəlxalq təcrübə göstərir ki, bu qanunauyğunluqlar əsasən aşağıdakılardır:

- Ölkə iqtisadiyyatının inkişafında, cəmiyyətin həyat fəaliyyətinin təminatında sahibkarlığın iqtisadi mahiyyətinin, məzmununun və rolunun elmi cəhətdən başa düşülməsi;
- Müasir sahibkarlığın rasional proteksionizmi;
- İqtisadi və sosial məqsədlərin üzvi uyğunlaşmasının təminatı;
- Məqsədli proqram tənzimlənməsi;
- Dövlət köməyinin zəmanəti;
- Çevik diferensial yanaşma;
- Dövlət yardımının motivləşdirilmiş istiqamət;
- Sahibkarlıq fəaliyyəti formalarının müxtəlifliyi;
- Dövlət, regional xidmətlər arasında vəzifə bölgüsü və kooperasiyası (İ.İ.Məmmədova, 2002: s.139).

Kiçik və orta sahibkarlığa dövlət dəstəyi və ya köməkliyinin aşağıdakı kimi həyata keçirilməsi məqsədəuyğun hesab olunur(N. Məmmədov, A. Məhərrəmov, S.Əhmədova, 2011: s.122):

- Kiçik və orta sahibkarlığın dəstəklənməsinin və inkişafının infrastrukturunun formalaşdırılması;
- Kiçik və orta sahibkarlığa kömək proqramlarının hazırlanması və həmin proqramların həyata keçirilməsinin təşkili;
- Kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə, maddi, elmi-texniki və informasiya resurslarını əldə etmələri üçün güzəştli şəraitin yaradılması;
- Kadrların hazırlanması, yenidənhazırlanması və ixtisaslarının artırılması sahəsində kiçik və orta sahibkarlıq subyektlərinə kömək göstərilməsi;
- Kiçik və orta sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətinə, o cümlədən, xarici tərəf müqabilləri ilə istehsalat, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafına kömək göstərilməsi;

- Kiçik və orta sahibkarlıq subyektləri üçün dövlət qeydiyyatının (uçotunun), vergitutma, statistik və mühasibat hesabatlarının təqdim edilməsinin, onların fəaliyyətinin lisenziyalaşdırılmasının və istehsal etdikləri məhsulun sertifikatlaşdırılmasının sadələşdirilmiş sisteminin tətbiqi;

- Kiçik və orta sahibkarlığın inkişafı üzrə tədqiqatların təşkili.

Azərbaycanda sahibkarlığa dövlət dəstəyi təmin edən əsas qurum Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi hesab olunur. Sahibkarlığa dövlət yardımının bütün istiqamətləri Nazirlik xətti ilə müəyyənləşdirilir, tədbirlər planları hazırlanır və həyata keçirilməsinə birbaşa nəzarət olunur.

İqtisadiyyat Nazirliyinin fəaliyyət istiqamətləri, vəzifələri və funksiyaları Azərbaycan Respublikası Prezidentinin 20 fevral 2014-cü il tarixli 11 nömrəli Fərmanı ilə təsdiqlənmiş Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Əsasnaməsi ilə müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi - Azərbaycan Respublikasının iqtisadi siyasətini, iqtisadi və sosial proqnozlarını işləyib hazırlayan, iqtisadiyyatın ayrı-ayrı sahələrinin, o cümlədən sənayenin inkişafı, ölkə iqtisadiyyatında struktur və innovasiya, investisiya fəaliyyəti, investisiyaların cəlb edilməsi, qoyulması və təşviqi, sahibkarlığın inkişafı, sahibkarlığa dövlət dəstəyi, rəqabətin qorunması, inkişafı və təşviqi, haqsız rəqabətin aradan qaldırılması, istehlakçıların hüquqlarının qorunması, dövlət vəsaitləri hesabına malların (işlərin və xidmətlərin) satın alınması, daxili ticarət, xarici iqtisadi və ticarət əlaqələri, regionların sosial-iqtisadi inkişafı və mənzil-kommunal təsərrüfatı sahələrində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır(https://economy.gov.az/article/statute-of-the-ministry/21260, 2014).

Əsasnamədən də göründüyü kimi, ölkəmizdə sahibkarlığın inkişafı, sahibkarlığa dövlət dəstəyi, iqtisadiyyatda rəqabətin qorunması, haqsız rəqabətin aradan qaldırılması, həmçinin, ölkə iqtisadiyyatına daxili və xarici mənbələr hesabına investisiyaların cəlb edilməsi birbaşa İqtisadiyyat Nazirliyi və onun struktur vahidləri tərəfindən təmin olunur. Göründüyü kimi, bütün bu sadalanan tədbirlər ölkədə sahibkarlıq mühitinin formalaşdırılması və inkişafına xidmət edir.

Nazirliyin strukturuna daxil olan şöbələrdən sahibkarlığın inkişafına birbaşa və ya dolayısilə təsir göstərən şöbələr aşağıdakı qrafikdə əks olunmuşdur.

**Qrafik 4. İqtisadiyyat Nazirliyinin sahibkarlığın inkişafına birbaşa və ya dolayısilə təsir göstərən şöbələr**




**Mənbə:**(http://sahibkar.economy.gov.az/index.php/component/content/article/16-arayishlar/26-sahibkarligin-tarixi).

Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin funksiyaları aşağıdakı qrafikdə qeyd olunmuşdur:

**Qrafik 5. Sahibkarlığın inkişafı siyasəti və tənzimləsi şöbəsinin funksiaları**




**Mənbə:**(http://sahibkar.economy.gov.az/index.php/component/content/article/16-arayishlar/26-sahibkarligin-tarixi)

Ölkəmizdə kiçik və orta sahibkarlığa dövlət qayğısının həyata keçirilməsi məqsədilə bir sıra mexanizmlər, bu istiqamətdə dövlət siyasəti və tədbirlər planı müəyyənləşdirilərək həyata keçirilməkdədir. Lakin müasir dövrün tələblərinə uyğun iqtisadiyyatın formalaşması üçün dövlət öz siyasətində inkişaf etmiş dövlətlərin təcrübəsinə müraciət etməlidir.

## 3.2. Azərbaycan iqtisadiyyatında Alman kiçik və orta biznesindən alınacaq təcrübələrin tətbiqi məsələləri

Tədqiqat işimizin ikinci fəslində Almaniyada kiçik və orta sahibkarlıq subyektlərinə (Mittelstand) dövlət qayğısının forma və üsullarından ətraflı şəkildə bəhs edilmişdir. Ölkəmizdə bu təcrübənin tətbiqi üçün geniş imkanlar mövcuddur. Ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafına dəstək istiqamətində görülən bir sıra tədbirlər Avropa İttifaqı və Almaniya təcrübəsinə uyğun gəlir. Bu istiqamətdə Respublikamızda həyata keçirilən tədbirlər, yaradılan qurumlar, strukturlar, KOS-ların inkişafını dəstəkləyən dövlət müəssisə və təşkilatlarının fəaliyyətinə ümumi nəzər salaraq onların müvafiq xarici təcrübəyə uyğunluğunu müəyyən edək.Azərbaycanda kiçik və orta biznesə dəstək göstərən bütün qurumlar İqtisadiyyat Nazirliyinə tabedir.Sahibkarlığın inkişafında birbaşa rol oynayan müəssisə və təşkilatlar aşağıdakı qrafikdə verilmişdir:

**Qrafik 6. İqtisadiyyat Nazirliyinə tabe olan və sahibkarlığın inkişafına təsir edən müəssisə və təşkilatlar**




**Mənbə:** (https://economy.gov.az/uploads/fm/files/struktur.jpg)

**1.** "Bakı Biznes Mərkəzi" MMC.Bakı Biznes Mərkəzi12 mart 2010-cu ildə fəaliyyətə başlamışdır. İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış bu qurumun əsas fəaliyyət istiqamətlərinə beynəlxalq və milli səviyyədə sərgilərin, konfransların, seminarların təşkili, təqdmiat mərasimlərinin və işgüzar görüşlərin keçirilməsi daxildir. Mərkəzin bu fəaliyyəti ilə ölkədə sahibkarların xarici bazarlara çıxış, xarici iri şirkətlər və transmilli korporasiyalarla əməkdaşlıq imkanlarının genişləndirilirməsinə, sahibkarların və investorların yatırım fürsətləri haqqında məlumatlandırılmasına, təkan verilir.

**2.** İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun əsası 2 oktyabr 1964-cü ildə Azərbaycan SSR Nazirlər Şurasının qərarı ilə qoyulmuşdur. İnstitut 2006-cı ildən etibarən İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu kimi adlandırılmışdır. İlk yarandığı dövrlərdə İnstitutun əsas fəaliyyət istiqamətlərinə xalq təssərrüfatının inkişafı, məhsuldar qüvvələrin yerləşdirilməsi ilə bağlı baş sxemlərin hazırlanması aid idisə, hazırda İstitutun əsas vəzifəsi əldə olunmuş dinamik sosial-iqtisadi inkişafın davamlılığının təmin olunması istiqamətində elmi əsasların işlənilməsi və bu istiqamətdə addımların atılması məqsədilə Nazirliyə təkliflərin planının təqdim olunmasıdır.

Sosial-iqtisadi inkişafın davamlılığının təmin olunması məqsədilə İnstitut dövlətin qarşıya qoyduğu əsas məqsədlərdən olan regionaların iqtisadi inkişafı, işsizlik probleminin aradan qaldırılması, regionlarda sahibkarlıq mühitinin yaxşılaşdırılması, prioritet fəaliyyət sahələrinin müəyyən edilərək dəstəklənməsi kimi tədbirlərdə əsas tədqiqatçı və analitik rolunu oynayan qurumdur.

**3.** Azərbaycan Respublikası Sahibkarlıq İnkişaf Fondu. Sahibkarlıq İnkişaf Fondu Azərbaycan Respublikasında sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması sahəsində tədbirlərdə iştirak edir, onlara maliyyə dəstəyi verir. Fondun əsas vəzifəsi sahibkarlığın, xüsusilə kiçik sahibkarlığın inkişafına kömək məqsədilə maliyyə ehtiyatlarının cəlb edilməsindən, sağlam rəqabətin və əmtəə bazarının inkişafına şərait yaradılmasından, yeni iş yerlənin yaradılmasını

təmin edən investisiya layihələrinin həyata keçirilməsində iştirak etməkdən ibarətdir.

Sahibkarlıq İnkişaf Fondunun əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- İdxalı əvəz edən məhsulların istehsalı;
- İxrac qabiliyyətli məhsulların istehsalı;
- İnnovasiya yönümlü layihələrin icrası;
- Bu, ölkənin sosial iqtisadi inkişafı ilə bağlı məqsədli proqramlar çərçivəsində özəl sektorun dəstəklənməsi;
- Kütləvi informasiya vasitələrinin inkişafı;

Respublikamızda Fondun vəsaitlərinin istifadəsi istiqamətlərinin genişləndirilməsi məqsədilə "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 sentyabr 2002-ci il tarixli Fərmanına əsasən 2003-2005-ci illər ərzində kiçik və orta sahibkarlığın inkişafına, ümumilikdə 50 milyon manat vəsait ayrılması nəzərdə tutulmuşdu.

"Sahibkarlıq İnkişaf Fondunun vəsaitlərinin istifadəsi Qaydaları"na müvafiq olaraq, vəsaitlər ilk dəfə kommersiya bankları vasitəsilə verilməyə başlanmışdır. Bu yeni praktika iki məsələnin həll edilməsini təmin etdi:

- Regionlarda bankların filiallarını açmaq və bank sistemi makroiqtisadi inkişaf üçün şərait yaratdı.
- Regionlarınsosial-iqtisadi inkişafına impuls verdi.

**4.** Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**.** Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi 28 dekabr 2017-ci ildə yaradılmışdır. İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyyət göstərən Agentliyin əsas funksiyalarına ölkədə kiçik və orta biznesin inkişafının dəstəklənməsi, kiçik və orta sahibkarlıq subyektlərinə bir sıra xidmətlərin göstərilməsi, dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsi və tənzimlənməsinin həyata keçirilməsi aiddir.Agentlik publik hüquqi şəxs statsuna malikdir.

Agentliyin Nizamnaməsinə əsasən Agentliyin fəaliyyətinin məqsədi kiçik və orta biznesin(KOB) fəaliyyətinin tənzimlənməsində iştirak etmək, bu sahədə beynəlxalq təcrübədə geniş tətbiq olunan və müasir tələblərə cavab verən çevik idarəetmə sisteminin və səmərəli əlaqələndirmə mexanizminin tətbiqi yolu ilə KOB subyektlərinin ölkə iqtisadiyyatında rolunu möhkəmləndirmək, xüsusi çəkisini və rəqabət qabiliyyətini artırmaq, maliyyə resurslarına çıxış imkanlarını genişləndirmək və onlara institusional dəstək mexanizmlərini təkmilləşdirmək, dövlət və özəl qurumlarının bu sahədə fəaliyyətini əlaqələndirmək, regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaradılması, bu sahəyə yerli və xarici investisiyaların cəlb edilməsinə nail olmaqdır(http://www.e-qanun.az/framework/39263).

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi strukturu 26 iyun 2018-ci ildə Respublika Prezidentinin Fərmanı ilə aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Aparatı;
- Kiçik və orta biznes evləri;
- Kiçik və orta biznesin inkişafı mərkəzləri;
- Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi;
- Kiçik və orta biznesin inkişafı fondları.

Kiçik və orta biznes evləri. KOB evləri Agentliyin kiçik və orta sahibkarlığa yönəldilmiş özəl və dövlət dəstəklərinin və xidmətlərinin vahid məkanda və bir-birilə əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən struktur vahididir.

KOB evlərinin fəaliyyətinin məqsədləri - sahibkarlıq subyektlərinə operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsiplərinə uyğun olaraq vahid məkanda, əlaqələndirilmiş formada, yeni üslubda, müasir innovasiyaları tətbiq etməklə "G2B" (dövlət-biznes) və "B2B" (biznes-biznes) xidmətlərinin göstərilməsi, hər bir xidmətin sahibkar məmnunluğu təmin edilməklə qanunauyğun, keyfiyyətli və şəffaf həyata keçirilməsi, sahibkarların maarifləndirilməsi, bilik və bacarıqlarının artırılması məqsədilə onlara təlim, məsləhət, informasiya, beynəlxalq mübadilə proqramlarında iştirak və digər dəstək

xidmətlərinin göstərilməsi, biznes ideyasına malik şəxslərin ideyalarının dəqiqləşdirilməsi və sahibkarlıq fəaliyyətinə başlamalarına şərait yaradılması, yeni biznes ideyaların və startapların dəstəklənməsi, kiçik və orta biznes subyektlərinin hüquqlarının, maraqlarının qorunmasında və problemlərinin həllində iştirak edilməsidir(http://smb.gov.az/nav/kob-evlri).

Kiçik və orta biznes inkişaf mərkəzi. KOB İnkişaf Mərkəzi kiçik və orta sahibkarlıq subyektlərinin və startap layihələrinin dəstəklənməsi və onların inkişafı istiqamətində görülən tədbirləri əlaqələndirən qurumdur.

KOB İnkişaf Mərkəzinin fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Kiçik və orta sahibkarlığın innovasiyalı inkişafına dəstək olmaq;
- Startap layihələrinin, ailə bizneslərinin təşviq edilməsi və eyni zamanda, qadınların, əlillərin və gənclərin sahikarlıq fəaliyyətinə stimullaşdırılması;
- Sahibkarlara konsaltinq xidmətinin göstərilməsi;
- Müxtəlif seminarların, konfransların, təlimlərin və təcrübə proqramlarının keçirilməsi vasitəsilə sahibkarlığın inkişafına töhvələrin verilməsi;
- Kiçik və orta sahibkarlığın tənzimlənməsi istiqamətində qanunvericilik bazasının yaradılmasında iştirak etmək;
- Regionlarda özünü məşğulluğun artırılması məqsədilə sosial sahibkarlığın inkişafına yardımların göstərilməsi;

Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi. Mərkəzin əsas funksiyası dövlət və özəl sektor arasındakı əlaqələri təkmilləşdirmək və bu fəaliyyətin səmərəliliyinin artırılmasına xidmət etməkdir. Mərkəzin yaradılma məqsədləri aşağıdakı kimidir:

- Dövlətlə özəl sektorun tərəfdaşlığı sahəsində xarici təcrübənin araşdırılaraq tətbiqi üçün lazım olan şərtlərin müəyyənləşdirilməsi və bu istiqamətdə layihələrin hazırlanması və mövcud layihələrin təkmilləşdirilməsi;
- Dövlət və özəl sektorun tərəfdaşlığı zamanı risk və məsuliyyət bölgüsünün optimallaşdırılması;

- Mövcud infrastrukturun və sosial xidmətlərin yaxşılaşdırlması və bu məqsədlərə xidmət edən beynəlxalq investisiyaların ölkəmizə cəlb edilməsi üçün tədbirlərin görülməsi.

Kiçik və orta biznesin inkişafı fondu. KOB İnkişaf Fondu Agentliyin fəaliyyətinin maliyyə təminatını həyata keçirmək üçün yaradılmışdır. Fondun fəaliyyətinin əsas məqsədi kiçik və orta sahibkarlığın inkişafının maliyyə təminatı, buraya xarici və daxili investisiyaların cəlb edilməsi, KOS layihələrinə maliyyə dəstəyi verilməsi, KOS-ların investisiya mühitinin yaxşılaşdırılması məsələləridir. Fondun yerinə yetirməli olduğu əsas vəzifələr aşağıdakılardır:

- Müvafiq orqanlar tərəfindən Fonda ayrılmış vəsaitlərin düzgün, səmərəli və təyinatına uyğun istifadəsini təmin etmək;
- KOS-ların xarici bazarlara çıxış imkanlarını gücləndirilmək məqsədilə layihələrin maliyyələşdirilməsi üçün vəsaitlərin cəlb edilməsi;
- Kiçik və orta sahibkarlıq subyektləri üçün Fondla əməkdaşlıq edən bank və bank olmayan kredit təşkilatları xətti ilə ayrılmış və cəlb edilmiş vəsaitlər hesabına güzəştli maliyyə resurslarından istifadə imkanını genişləndirmək;
- Fondun vəsaitləri və cəlb edilmiş vəsaitlər hesabına investisiya layihələrinin maliyyələşdirilməsi üçün müvafiq ekspertizanı həyata keçirmək;

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi öz fəaliyyətini regionlarda da təmin etmək məqsədilə həyata keçirdiyi layihələrdən biri də Kiçik və Orta Biznesin Dostları şəbəkəsi layihəsidir. KOB-un dostları regionlarda yeni kiçik və orta sahibkarlıq subyektlərinin yaranmasına və inkişafına dəstək məqsədilə fəaliyyət göstərirlər. Bununla da, KOB dostları fəaliyyəti Respublikanın regionlarının potensialının reallaşdırılmasına yönəldilmişdir. Bu məqsədlə, investisiya layihələri müəyyənləşdirilir və onların KOS-lar vasitəsilə reallaşdırılması təşviq edilir.

KOB Dostlarının fəaliyyətinin bir digər önəmli istiqaməti dövlətin kiçik və orta sahibkarlığa dəstəklərindən istifadə imkanlarının genişləndirilməsi, bu dəstəklərə KOS-ların heç bir maneə olmadan və rahatlıqla çıxışının təmin edilməsi,

digər tərəfdən Agentliyin göstərilməsi nəzərdə tutulanbütün dəstək mexanizmlərinin tətbiqinə yönəlmişdir.

KOB Dostları, həmçinin,KOS subyektlərinin hüquqlarının müdafiəsi üzrə dəstəkləyici vəzifəni də öz üzərinə götürür.

Hazırda, ölkə üzrə 13 KOB Dostu fəaliyyət göstərir. Bunlardan sonuncusu 13 mart 2019-cu ildə bir hissəsi işğal altında olan Fizuli rayonunda yaradılmışdır. Hansı ki, bu KOB Dostu cəbhə boyu məskunlaşmış kiçik və orta sahibkarlıq subyektlərinə və əhaliyə xidmət göstərir.

"Azərbaycan İnvestisiya Şirkəti" ASC. Şirkət 30 mart 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılmışdır. Şirkətin fəaliyyətinin əsas məqsədi qeyri-neft sektoru üzrə ölkədə fəaliyyət göstərən müəssisə və təşkilatların investisiyalaşmasını həyata keçirməkdir. Şirkət bu məqsədlə, həm daxili, həm də xarici mənbələrdən istifadə edir.

Nəzərə alsaq ki, Almaniya kiçik və orta biznesin inkişafının dəstəklənməsi sisteminin bu səviyyəyə çatması üçün 60 ildən çox müddət sərf etmişdir, ölkəmizdə belə sistemin formalaşması üçün görüləcək işlər hələ ki, çoxdur.

Almaniyada kiçik və orta biznesin inkişafına göstərilən dəstəkləri 3 əsas başlıq altında cəmləşdirə bilərik:

1. Avropa İttifaqının kiçik və orta biznesin inkişafına göstərdiyi dəstəklərin ölkəyə cəlb edilməsi;
2. Federal dövlət və əyalətlər səviyyəsində həyata keçirilən dövlət proqramları;
3. Kiçik və orta biznesi dəstəkləyən, müstəqil fəaliyyət göstərə bilən müəssisə və təşkilatların, xüsusilə, inkişaf banklarının yaradılması.

Ölkəmiz Avropa İttifaqına daxil olmadığı üçün qeyd olunan birinci dəstək istiqamətindən istifadə imkanları məhduddur. Lakin kiçik və orta biznesin inkişafına dəstək göstərən ölkəmizin də üzv olduğu beynəlxalq qurum və təşkilatlar vardır və dövlətimiz bu dəstəklərin maksimum şəkildə cəlb edilməsinə çalışmalıdır.

Qeyd olunan, ikinci dəstək istiqamətində dövlətimizin görə biləcəyi işlər daha genişdir. Ölkəmizdə həyata keçirilən bir sıra dövlət proqramlarında kiçik və orta sahibkarlığın inkişafı üçün bəzi tədbirlərin görülməsi məsələləri əhatə olunsa da, sırf bu istiqamətdə dövlət proqramları məhduddur. Həm ümumdövlət, həm də regional səviyyədə KOS-ların inkişafının dəstəklənməsi üçün bir sıra dövlət proqramlarının işlənib hazırlanmasına və həyata keçirilməsinə ehtiyac vardır.

Üçüncü dəstək istiqamətdə ölkəmizdə də bir çox tədbirlər görülmüş və bir sıra qurum və təşkilatlar yaradılmışdır. Ölkəmizdə yaradılmış bu qurum və təşkilatların Almaniya təcrübəsinə nəzərən əsas çatışmazlıqları müstəqil fəaliyyət göstərə bilməmələri, dövlət büdcəsinin maliyyə dəstəklərindən asılılıq, resurslarının kifayət qədər çox olmaması, əhatə dairəsinin darlığı və s. bu kimi çatışmazlıqlardır.

### 3.3.Müasir dövrdə Azərbaycanın kiçik və orta biznesində aparılan islahatların milli iqtisadiyyatın inkişafında rolunun qiymətləndirilməsi

Son dövrlərdə dövlətimizin kiçik və orta biznesin inkişafı istiqamətində aparıdığı islahatlarölkənin milli iqtisadiyyatının inkişafına birbaşa və dolayısıyla təsir göstərmişdir. Kiçik və orta sahibkarlığın inkişafı ölkə iqtisadiyyatında innovasiya fəaliyyətinin sürətləndirilməsinə, yeni texnika və texnologiyaların, ixtiraların, startap layihələrinin, yeni istehsal üsullarının cəlb edilməsinə və tətbiqinə şərait yaratmışdır. Bununla da, kiçik və orta sahibkarlıq bazarın sürətlə dəyişən tələblərinə cəld və yerində reaksiya verməyə imkan vermişdir.

Qrafikdən də görüldüyü kimi, 2014-cü ildən dövlətimizin yaşadığı iqtisadi geriləmə öz təsirini kiçik sahibkarlıq subyektlərinin sayında da göstərmişdir. Kiçik müəssisələrin 2016-cı ildə ümumi sayı 187598 ədəd olduğu halda 2017-ci ildə 165386 olmuş, yəni 22212 qədər azalmışdır. Bu azalmanın əsas səbəbi fərdi sahibkarlıq subyektlərinin 24912-nin ləğv edilməsidir. Bütün bu geriləməyə baxmayaraq, kiçik sahibkarlıq subyektlərinin tərkibində hüquqi şəxslərin payı artmış və 2016-cı il sayına görə 16% artım müşahidə olunmuşdur. Bununla yanaşı, orta sahibkarlıq subyektlərinin sayında da cüzi də olsa, təxminən, 3%-lik bir artım

vardır. Bu qrafikə əsasən onu deyə bilərik ki, hər keçən il kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi gücü və potensialı artmaqdadır.

**Cədvəl 9. KOS-ların sayı barədə**

| Göstəricilər | 2016 | | | 2017 | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | |
| | | Hüquqi şəxslər | Fərdi sahibkarlar | | Hüquqi şəxslər | Fərdi sahibkarlar |
| Sahibkarlıq subyektlərinin ümumi sayı | 191695 | 20932 | 170763 | 169603 | 23752 | 145851 |
| Kiçik sahibkarlıq subyektlərinin sayı | 187598 | 16835 | 170763 | 165386 | 19535 | 145851 |
| Orta sahibkarlıq subyektlərinin sayı | 4097 | 4097 | - | 4217 | 4217 | - |

**Mənbə:** Azərbaycan Respublikası Statistika Komitəsinin rəsmi internet saytı (https://www.stat.gov.az/)

**Cədvəl 10. İqtisadi rayonlar üzrə kiçik və orta müəssisələrin paylanması**

| İqtisadi rayonlar | 2016 | | | 2017 | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | |
| | | Kiçik | Orta | | Kiçik | Orta |
| **Ölkə üzrə cəmi** | **191695** | **187598** | **4097** | **169603** | **165386** | **4217** |
| Bakı şəhəri | 75149 | 72815 | 2334 | 70222 | 67798 | 2424 |
| Abşeron iqtisadi rayonu | 14481 | 14279 | 202 | 13222 | 12996 | 226 |
| Gəncə-Qazax iqtisadi rayonu | 21564 | 21263 | 301 | 18810 | 18511 | 299 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 11711 | 11554 | 157 | 9571 | 9400 | 171 |
| Lənkəran iqtisadi rayonu | 12123 | 11974 | 149 | 9547 | 9381 | 166 |
| Quba - Xaçmaz iqtisadi rayonu | 9385 | 9263 | 122 | 7738 | 7611 | 127 |
| Aran iqtisadi rayonu | 32315 | 31867 | 448 | 26656 | 26208 | 448 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 3273 | 3198 | 75 | 2813 | 2737 | 76 |
| Kəlbəcər-Lacın iqtisadi rayonu | 161 | 128 | 33 | 157 | 125 | 32 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 5068 | 4975 | 93 | 4332 | 4259 | 73 |
| Naxçıvan Muxtar Respublikası | 6465 | 6282 | 183 | 6535 | 6360 | 175 |

**Mənbə:** Azərbaycan Respublikası Statistika Komitəsinin rəsmi internet saytı (https://www.stat.gov.az/)

İqtisadi rayonlar üzrə kiçik və orta müəssisələrin paylanması cədvəlində də göründüyü kimi, ölkə üzrə 2017-ci ildə 2016-cı ilə nəzərən kiçik və orta müəssisələrin sayında dəyişiklik iqtisadi rayonlarda da göstərmişdir. İqtisadi rayonlardan yalnız Naxçıvan Muxtar Respublikasında kiçik müəssisələrin sayında artım müşahidə olunmuş, kiçik müəssisələrin sayı 6282-dən 6360-a yüksəlmişdir. Orta müəssisələrin sayında isə, artım 11 iqtisadi rayondan altısında - Bakı şəhəri, Abşeron, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Yuxarı Qarabağ iqtisadi rayonlarında müşahidə olunmuşdur. Bu iqtisadi rayonlarda orta müəssisələrin sayında ümumi artım 3039-dan 3190-a, yəni 151 vahid artım qeydə alınmışdır. Gəncə-Qazax, Kəlbəcər-Laçın, Dağlıq Şirvan iqtisadi rayonları və Naxçıvan Muxtar Respublikasında isə orta müəssisələrin sayında azalma müşahidə olunmuşdur. Bu iqtisadi rayonlarda orta müəssisələrin sayı ümumi olaraq 31 vahid azalmışdır. Aran iqtisadi rayonunda isə orta müəssisələrin sayında heç bir dəyişiklik müşahidə olunmamışdır.

Regionlar üzrə kiçik və orta müəssisələrin sayında bu kimi dəyişikliklərin baş verməsi onu deməyə imkan verir ki, regionların sosial-iqtisadi inkişafı istiqamətində dövlətimizin yerinə yetirdiyi tədbirlər və proqramlar sahibkarlığa öz lazımı effektini göstərə bilməmişdir.

**Cədvəl 11. KOS-ların makroiqtisadi göstəriciləri**

| **Göstəricilər** | **2016** | | | **2017** | | |
|---|---|---|---|---|---|---|
| | **Cəmi** | **o cümlədən** | | **Cəmi** | **o cümlədən** | |
| | | **Kiçik** | **Orta** | | **Kiçik** | **Orta** |
| Yaradılmış əlavə dəyər*, milyon manat | 3587.2 | 2928.0 | 659.2 | 3807.6 | 3051.9 | 755.7 |
| İşçilərin sayı, min nəfər | 281.0 | 100.9 | 180.1 | 290.1 | 101.9 | 188.2 |
| Orta aylıq nominal əmək haqqı, manat | 338.6 | 322.2 | 349.1 | 352.8 | 331.5 | 365.9 |
| Əsas kapitala investisiyalar, milyon manat | 2830.2 | 1828.6 | 1001.6 | 3298.6 | 2064.8 | 1233.8 |
| Məhsul buraxlışı, milyon manat | 5831.2 | 4666.1 | 1165.1 | 6269.6 | 4884.7 | 1384.9 |

**Mənbə:** Azərbaycan Respublikası Statistika Komitəsinin rəsmi internet saytı (https://www.stat.gov.az/)

Yuxarıdakı cədvəllərdə göstərdiyimiz kimi kiçik müəssisələrin sayında azalma qeydə alınsa da, KOS-ların makroiqtisadi göstəriciləri haqqındakı cədvəldə onların yaratdıqları əlavə dəyərdə artım müşahidə olunduğu nəzərə çarpır. 2016-2017-ci illərdə kiçik müəssisələrin sayındakı 11,8% azalmaya rəğmən, bu müəssisələrdə yaradılmış əlavə dəyərdə 4,2% artım müşahidə olunmuşdur. Həmçinin, orta müəssisələrin sayındakı 3%-lik artım özünü yaradılan əlavə dəyərdə 14,6%-lik artımla biruzə vermişdir.

Kiçik və orta sahibkarlıq müəssisələrin sayında 2017-ci ildə 2016-cı ilə nəzərən azalma azalma müşahidə olunsa da, fəaliyyət göstərən işçilərin sayı 281 min nəfərdən 290,1 min nəfərə qədər, yəni 3,2% artmışdır. Bu artım iqtisadiyyatda muzdla çalışan işçilərin sayındakı 10,7 min nəfərlik artımın əsasını təşkil etmişdir. Belə ki, iqtisadiyyatda muzdla çalışan işçilərin sayındakı artımın 85,7%-ni (9,1 min nəfər) KOS-larda çalışan işçilər təşkil etmişdir.Həmçinin, kiçik və orta müəssisələrdə çalışan işçilərin orta aylıq əmək haqqı 338,6 manatdan 352,8 manata, yəni 4,2% artmışdır.

Analoji dövrdə kiçik və orta müəssisələrdə əsas kapitala qoyulan investisiyalar 468,4 milyon manat artaraq 3298,6 milyon manat olmuşdur. 2016-cı illə müqayisədə bu artım 16,5% təşkil etmişdir. Qeyd olunan dövrdə, kiçik və orta müəssisələrdə əsas kapitala investisiyalar demək olar ki, eyni miqdarda artmış olsa da, orta müəssisələrdə əsas kapitala qoyulan investisiyalar 23,2% artmışdır.

Cədvəldən də göründüyü kimi, tədqiq olunan dövrdə kiçik və orta müəssisələrinmakroiqtisadi göstəricilərindəki artım özünü məhsul buraxılışnda da göstərmişdir. Belə ki, 5831.2 milyon manatdan 6269,6 manata, yəni 438,4 milyon manat artımla qeydə alınmışdır. Cədvəldə də göründüyü kimi Sahibkarlığa Kömək Milli Fondunun təşkilatı ilə 5ildə 217 forum keçirilmişdir. Bu formların 82,5%-inin regionlarda keçirilmiş olması onu deməyə imkan verir ki, dövlətimiz regionların inkişafına qayğı göstərir və bu işdə maraqlıdır. Çünki regionlar arası iqtisadi inkişaf fərqlərinin aradan qaldırılması və eyni zamanda regionlarda

əhalinin iqtisadi rifahının yüksəldilməsi dövlətin başlıca siyasətlərindən hesab olunur.

**Cədvəl 12. Sahibkarlığa Kömək Milli Fondunun həyata keçirdiyi forumlar barədə məlumat**

| | Regionlarda | | Bakı şəhərində | |
|---|---|---|---|---|
| | forumların sayı | iştirakçıların sayı | forumların sayı | iştirakçıların sayı |
| 2013 | 33 | 3440 | 12 | 1240 |
| 2014 | 38 | 3550 | 9 | 730 |
| 2015 | 39 | 3470 | 7 | 600 |
| 2016 | 33 | 3350 | 6 | 610 |
| 2017 | 36 | 3490 | 4 | 400 |

**Mənbə:**Cədvəl Sahibkarlığa Kömək Milli Fondunun illik hesabatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bu forumlarda, ümumilikdə, 20 880 sahibkar iştirak etmişdir. Sahibkarların bu forumlarda maariflənfirici treninqlər keçilmiş, onlara iqtisadi savad və məsləhətlər verilmiş, informasiya təminatı və investorların cəlb edilməsi üçün kütləvi informasiya vasitələrinin burada iştirakı təmin edilmişdir.

Sahibkarlığa kömək fondunun gördüyü işlər bu forumlarla bitmir. Onların əsas işi olan sahibkarlara güzəştli kreditlərin verilməsi və nəticələri barədə isə 2013-2017ci illəri əhatə edən son 5 ilin məlumatları aşağıdakı cədvəldə verilmişdir.

**Cədvəl 13. Sahikarlığa Kömək Milli Fondunun sahibkarlara veridiyi güzəştli kreditlər**

| | sahibkarların sayı | verilən kreditlərin miqdarı (min manat) | yaradılan yeni iş yerləri |
|---|---|---|---|
| 2013 | 4468 | 275000 | 12045 |
| 2014 | 5560 | 295000 | 12564 |
| 2015 | 5243 | 248500 | 12600 |
| 2016 | 2477 | 189400 | 8106 |
| 2017 | 1953 | 146000 | 6591 |
| **cəmi** | **19701** | **1153900** | **51906** |

**Mənbə:** Cədvəl Sahibkarlığa Kömək Milli Fondunun illik hesabatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Yuxarıda verilmiş cədvəldən də göründüyü kimi təkcə fond tərəfindən son 5 ildə 1 153,9 milyon manat güzəştli kredit verilmişdir. Bu güzəştli kreditlərdən 19701 sahibkar yararlanmış və nəticəsində 51906 yeni iş yerləri yaradılmışdır. Bunların əksəriyyəti regionların sahibkarlarına xüsusəndə kənd təsərrüfatına ayrılmışdır. Ümumilikdə fondun yaradılmasından 2018-ci ilə kimi verilən güzəştli kreditlərin həcmi 2,1 milyard manatı keçmişdir, bunun nəticəsində 34 644 sahibkar kreditlə təmin edilmiş və 156 177 yeni iş yerləri yaradılmışdır. Sahibkarlara verilmiş bu güzəştli kreditlərin 45%-i, yəni 938,7 milyon manatı məhz fondun öz hesabına və ya kreditlərin qaytarılması hesabına təmin edilmişdir.

Görülən tədbirlərlə yanaşı, iqtisadi inkişafın davamlılığının və dayanıqlılığının təmin edilməsi baxımından kiçik və orta sahibkarlıq sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- Kiçik və orta sahibkarlığın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi, ixrac potensialının artırılmasında və cəmiyyətin sosial problemlərin həllində kiçik və orta sahibkarlığın rolunun gücləndirilməsi;
- Sahibkarlıq fəaliyyətinin sahə, regional və texnoloji baxımdan strukturunun optimallaşdırılması;

## Nəticə və təkliflər

Tədqiqat işinin nəticəsində onu deyə bilərik ki, kiçik və orta biznesin inkişafı ölkədə həm məşğulluğa, həm də rəqabət mühitinin inkişafına öz müsbət təsirini göstərir. Bu fəaliyyət öz nəticəsini ölkə iqtisadiyyatının və əhalinin rifah halının yüksəlməsində göstərməkdədir. Bununla yanaşı, kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı ölkə iqtisadiyyatında baş verə biləcək durğunluq və böhranların nəticəsinin maksimum səviyyədə yumşaldılmasına və böhran vəziyyətindən çıxışın sürətləndirilməsinə imkan verir.

Kiçik və orta sahibkarlığın inkişafı ölkə iqtisadiyyatında innovasiya fəaliyyətinin sürətləndirilməsinə, yeni texnika və texnologiyaların, ixtiraların, startap layihələrinin, yeni istehsal üsullarının cəlb edilməsinə və tətbiqinə şərait yaratmışdır. Bununla da, kiçik və orta sahibkarlıq bazarın sürətlə dəyişən tələblərinə cəld və yerində reaksiya verməyə imkan vermişdir.

Həmçinin, kiçik və orta biznes subyektlərinin inkişafı regionlarda iqtisadi fəallığın inkişafına, regionlarda məşğulluğun artmasına, iqtisadi infrastrukturun inkişafına, kənd yerlərində fərdi şəkildə istehsal olunan məhsulların satış bazarlarının genişlənməsinə, təkrar istehsal genişlənməsinə, sosial və mədəni infrastrukturun inkişafına birbaşa və dolayı təsrilərini göstərmiş və hərtərəfli inkişafına təkan vermişdir.

Dövlətimiz kiçik və orta biznesin inkişafına dəstək göstərən, ölkəmizin də üzv olduğu beynəlxalq qurum və təşkilatların dəstəklərinin maksimum şəkildə cəlb edilməsinə çalışmalıdır.

Ölkəmizdə həyata keçirilən bir sıra dövlət proqramlarında kiçik və orta sahibkarlığın inkişafı üçün bəzi tədbirlərin görülməsi məsələləri əhatə olunsa da, sırf bu istiqamətdə dövlət proqramları məhduddur. Həm ümumdövlət, həm də regional səviyyədə KOS-ların inkişafının dəstəklənməsi üçün bir sıra dövlət proqramlarının işlənib hazırlanmasına və həyata keçirilməsinə ehtiyac vardır.

Ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafını dəstəkləmək məqsədilə yaradılmış qurum və təşkilatların Almaniya təcrübəsinə nəzərən əsas çatışmazlıqları müstəqil fəaliyyət göstərə bilməmələri, dövlət büdcəsinin maliyyə

dəstəklərindən asılılıq, resurslarının kifayət qədər çox olmaması, əhatə dairəsinin darlığı və s. bu kimi çatışmazlıqlardır.

Dövlətimiz 25 ildən uzun müddətdə kiçik və orta biznesin inkişafı istiqamətində bir çox tədbirlər görmüş olsa da, yuxarıda qeyd olunan problemlərin həlli istiqamətində uzunmüddətli tədbirlər planı işlənib hazırlanmalı və həyata keçirilməlidir.

## Ədəbiyyat siyahısı

### Azərbaycan dilində


1. A.M.Məhərrəmov. Sahibkarlıq: nəzəriyyədən praktikaya. Nurlar, Bakı, 2009, 360 s.
2. A.Şəkərəliyev, Q.Şəkərəliyev. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər.
3. Abdullayeva Z.H. Kiçik sahibkarlıq subyektlərinin iqtisadiyyatın inkişfında rolu. Bakı, İqtisad Univeristeti, 2015, 243 səh.
4. Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası
5. Azərbaycan Respublikası Regionların sosial – iqtisadi inkişafı Dövlət proqramı – 2004 – 2008-ci illər.
6. Azərbaycan Respublikası Regionların sosial – iqtisadi inkişafı Dövlət proqramı – 2008 – 2013-cü illər.
7. Azərbaycan Respublikası Regionların sosial – iqtisadi inkişafı Dövlət proqramı – 2013 – 2018 – ci illər.
8. Azərbaycan Respublikası Sahibkarlıq fəaliyyəti haqqında qanunu. Bakı, 1992. Əlavə və dəyişikliklərlə Bakı, 2015.
9. Azərbaycan Respublikasında bəzi sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 2000. Əlavə və dəyişikliklərlə, Bakı, 2018.
10. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi
11. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında ƏSASNAMƏ. 2014-cü il 20 fevral
12. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi.
13. Azərbaycanda sahibkarlığın inkişafının bazar mexanizmləri. Kollektiv müəlliflər. Bakı, Elm, 2008, 300 səh.

14. Bayramov V.İ. Azərbaycanda kiçik və orta sahibkarlığın formalaşması və inkişafının maliyyə təminatı məslələri. i.e.n alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2002, 141 səh.

15. Ə.Ş.İmanov. Kiçik sahibkarlıq. Bakı 2009

16. İ.H.İbrahimov, E.R.İbrahimov. Sahibkarlıq fəaliyyətinin iqtisadi, hüquqi mexanizmi. Bakı, 2004, 280 s.

17. İ.Qasımov, F.Cəbiyev. İnnovasiya sahibkarlığı və texnoparklar. Bakı 2017.

18. İmanov Ə. Kiçik sahibkarlıq. Bakı, Elm, 2009, 368 səh.

19. Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkilləşdirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 2017.

20. Q.N.Manafov. Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi aspektləri, Bakı, 2000

21. Qasımov F.H., İsmayılov İ.H. Sahibkarlığın əsasları. Bakı, "Milli Aviasiya Akademiyası nəşriyyatı", 2008, 602 səh.

22. Məmmədova İ.İ. Azərbaycanda kiçik biznesə kömək və onun inkişaf strategiyası. i.e.n alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2002, 131 səh.

23. N. Məmmədov, A. Məhərrəmov, S.Əhmədova. Azərbaycan iqtisadiyyatı, "Azərnəşr", Bakı 2011, 522 s.

24. Niftullayev V. Sahibkarlığın əsasları. Bakı, Zaman, 2002, 618 səh.

25. S.X.Aslanov, Sahibkarlıq hüququ, Bakı, 2005.

26. Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə. Bakı, 2011.

27. T.Əliyev, L. Babayev. Regional innovasiya sisteminin təşkili və idarə edilməsi. Elm və təhsil, Bakı, 2013, 272 s.

28. V.M.Niftullayev. Sahibkalığın əsasları. Bakı, 2004.

29. V.Yaroçkin, Y.Buzanova. Biznesin və sahibkarlığın təhlükəsizliyinin əsasları 2008

30. Z.Səmədzadə. Çin qlobal dünya iqtisadiyyatında. “Elm və Təhsil”, Bakı 2009, 608 s.

### Xarici dillərdə

1.Ali Farhoomand. Small business management and entrepreneurship in Hong Kong. Hong Kong, 2005.

2.Entrepreneurship and economic Development, Washington, 1989, Policy Research Working Paper, 250 p.

3.Eric Owen Smith. The German economy. Routladge publishing, New York, 2003.

4.Gerald I.Susman. Small and medium-sized enterprises and global economy. Pennsylvania, 2007, 345 p.

5.Hamid Etemad. International entrepreneurship in small and medium-sized enterprises. Northampton 2004.

6.Horst Siebert. German economy beyond the social market. Princeton University press, New Jersey, 2005.

7.J.Zoltan, B.Carlsson, C.Karlsson. Entrepreneurship, small and medium-sized enterprises and the macroeconomy. Cambridge, 2002. 434 p.

8.Kaevan Gazdar. Garmany’s balanced development. New Jersey, 199, 233 p.

9.Leo Paul Dana. Entrepreneurship and SMEs in the Euro-zone. Imperial Collage Press, London 2006.

10.Lucie Pfaff. The American and German Entrepreneur: Economic and Literary Interplay. Orlando, 2007.

11.Niina Nummela. International growth of small and medium-sized enterprises. New York, 2011.

12.Small and medium-sized enterprises in countries in trasition. Book by United Nations, Geneva 2003.

13.The Mittlestand: The German Model and the UK. by Midland Bank, London 2007.

1.А.О.Баинов, И.Н.Шапкин. Малое предпринимателства. Москва, 2003.

2.В.З.Черниак. Бизнес и планирование учобное пособие. Москва, 2002.

3.И.Кондраков, Н.Кондраков.Основы малого и среднего предпринимательства. Москва, 2013, 448 с.

4.И.С.Глебова, Садыртдинов Р.Р.Государственное регулирование малого и среднего предпринимательства.

5.Ичитовкин Б.Н. Немополитический сектор экономики в системе современного монополитицеского капитализма, Красонрск, 1988, с 176

6.Рубе В.А. Мелкое и среднее предпринимательство в условиях господства монополий Москва, 1978, 213 с.

**İnternet resursları**

1.http://esnaf.gtb.gov.tr/data/54ace8d9f293705988210506/ckt.pdf

2.http://anfes.gov.az/az/show.page.php?guid=703bc0ee-1f1c-11e0-abe4-2f80f755c2ce

3.https://www.destatis.de/EN/Home/_node.html

4.https://en.ifm-bonn.org/statistics/#accordion=1&tab=0

5.https://ec.europa.eu/growth/smes/promoting-entrepreneurship/action-plan_en

6.http://sahibkar.economy.gov.az/index.php/component/content/article/16-arayishlar/26-sahibkarligin-tarixi

7.http://nilsdaehne.com/downloads/20180108_IGM_Lecture_WS1718.pdf

8.https://www.economy.gov.az/article/kichik-sahibkarlig-meyar/21404

9.http://www.cesd.az/wp/economic-8.htm

10.http://smb.gov.az/nav/kob-evlri

11.https://economy.gov.az/article/statute-of-the-ministry/21260

12.https://economy.gov.az/uploads/fm/files/struktur.jpg

13.http://www.e-qanun.az/framework/39263

14.https://www.stat.gov.az/

## Cədvəllərin siyahısı

**Cədvəl 1.** Sahibkarlıq subyektlərinin həcminə görə təsnifatı.................................................................................................16
**Cədvəl 2.** Almaniya sahibkarlıq müəssisələrinin işçilərin sayı və illik dövriyyəsi görə bölgüsü.................................................................................................32
**Cədvəl 3.** Almaniya sahibkarlıq müəssisələrini xarakterizə edən əsas makroiqtisadi göstəricilər.................................................................................................33
**Cədvəl 4.** KOS-lara Konsaltinq xidmətinin illər üzrə göstəriciləri.................................................................................................36
**Cədvəl 5.** Məsləhətçilərin fəaliyyət sahələri barədə məlumat.................................................................................................36
**Cədvəl 6.** KOS-lara göstərilən texnologiya və innovasiya konsaltinqi xidmətinin illər üzrə göstəricisi.................................................................................................37
**Cədvəl 7.** Müəssisə xarici peşə təhsili haqqında məlumat.................................................................................................38
**Cədvəl 8.** Müəssisə xarici peşə təhsili qurumlarına göstərilən yardım haqqında məlumat.................................................................................................38
**Cədvəl 9.** KOS-ların sayı barədə.................................................................................................65
**Cədvəl 10.** İqtisadi rayonlar üzrə kiçik və orta müəssisələrin paylanması....................65
**Cədvəl 11.** KOS-ların makroiqtisadi göstəriciləri.......................................................66
**Cədvəl 12.** Sahibkarlığa Kömək Milli Fondunun həyata keçirdiyi forumlar barədəməlumat.......................................................................................................................68
**Cədvəl 13.** Sahikarlığa Kömək Milli Fondunun sahibkarlara verdiyi güzəştli kreditlər.................................................................................................68

## Sxemlərin siyahısı

**Sxem 1.** Sahibkarlıq fəaliyyətinin növləri.................................................................................................18
**Sxem 2.** Almaniyada sənətkarlıq müəssisələri.................................................................................................34

**Qrafiklərin siyahısı**

**Qrafik 1.** Almaniya KOS-larının bəzi iqtisadi göstəriciləri....................31
**Qrafik 2.** Sənətkarlıq müəssisələrinin sahələr üzrə bölgüsü....................35
**Qrafik 3.** Federal Məşğulluq Agentliyinin təşkilati strukturu....................46
**Qrafik 4.** İqtisadiyyat Nazirliyinin sahibkarlığın inkişafına birbaşa və ya dolayısı ilə təsir göstərən şöbələr....................56
**Qrafik 5.** Sahibkarlığın inkişafı siyasəti və tənzimləsi şöbəsinin funksiaları....................56
**Qrafik 6.** İqtisadiyyat Nazirliyinə tabe olan və sahibkarlığın inkişafına təsir edən müəssisə və təşkilatlar....................57